

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir



## Azərbaycanın Zəfəri - "Dəmir yumruq" əməliyyatı

6

№ 179 (7104)

SƏS

1 oktyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Saz - söz dünyasının ustadı - Aşıq Ələsgər



2

## YAP İdarə Heyətinin iclası keçirilib



7

# Avropa İttifaqından növbəti DİLETANTLIQ




5

## İcma: Prezidentin tarixi çıxışı qayıdışımızın carçısıdır

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

4

## Ağ çörəklərin qəbulu azaldılmalıdır əks təqdirdə...



16

## "Ermənistan öz taleyini revanşçı qüvvələrə etibar edib"



8

## Ünvansız sosial yardım, yoxsa uşaqpulu?



8

# Saz - söz dünyasının ustadı - Aşıq Ələsgər

***Azərbaycan aşıq poeziyasının böyük sənətkarlarından biri, qüdrətli söz ustadı Aşıq Ələsgər zəngin irsi ilə Azərbaycan, ümumən türk şeirinə misilsiz töhfələr vermiş el sənətkarıdır. Onun yaradıcılığı bir həyat çeşməsidir, çağlayan bulaqdır ki, poetik ruhlu şeirləri daş yaddaşlara hopdurmuşdur. Poetik çalarlı, lirik düşüncəli yaradıcılığı ilə çox incə məqamlara toxunan aşıq söz xəzinəsi ilə özünə əbədi və tarixdən silinəz bir sənət mülkü yaratmışdır.***

Xalqın milli düşüncəsinə, ruhuna yaxın yaradan aşıq milyonlarla insanın dillər əzbəri olan şeirlərin müəllifi kimi şöhrətləndi. Xalq çeşməsindən su içmiş Aşıq Ələskər yaradıcılığı söz dünyasında dəst-xətti, fərdi üslubu ilə seçilmiş və yeni çalarları ilə aşıq yaradıcılığında yeni bir mərhələ yaratmışdır. Aşıq poeziyasını həyati müşahidələrlə zənginləşdirərək, həm məzmun, həm də forma rəngarəngliyi ilə seçilən - dodaqdəyməz, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı, divani və s. bu kimi şeir növləri ilə aradıcılıq irsinə rəngarənglik bəxş etmiş və ustad aşıq olduğunu təsdiqləmişdir.



*Prezident İlham Əliyev: "Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik"*





El sənətkarı dövrünün bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir.

Deməl olar ki, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında böyük iz buraxmışdır. Belə sənətkarlara dövlətimiz tərəfindən böyük diqqət göstərilir. Onların yaradıcılığına böyük qiymət verilir, yubiley tədbirləri keçirilir. Bu, Azərbaycan milli mədəniyyətinə, sənətinə olan diqqətdən qaynaqlanır.

Bildiyimiz kimi, Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 18 fevral 2021-ci il tarixində Sərəncam imzalamışdır. Sərəncamdan irəli gələrək, çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmiş Aşıq Ələsgərin anadan olmasının 200-cü ildönümü ölkəmizdə təntənəli şəkildə qeyd olundu. Böyük sənətkarın vətənpərvərlik hisslərini aşılayan, doğma təbiətimizi vəsf edən yaradıcılıq dünyası Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq sənətində öz çəkisi olan Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur el şairlərinə qüvvətli təsir göstərmişdir. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində ustad sənətkarın abidəsinin ucaldılması məqsədi ilə Sərəncam imzalamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev sentyabrın 30-da Bakıda Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında iştirak etdilər.

## "DOĞMA VƏTƏN, DOĞMA TORPAQ ONU YENƏ DƏ GÖYÇƏ MAHALINA ÇƏKİRDİ"

Dövlətimizin başçısı çıxışında Aşıq Ələsgərin ömür boyu Azərbaycanın qədim torpağı olan Göyçə mahalında yaşadığını və yaratdığını bildirərək, uzun ömür yaşadığını və ömrünün son illərində öz doğma torpaqlarını tərk etməyə məcbur olduğunu diqqətə çatdırmışdır: "O vaxt onun 97 yaşı var idi, 1918-ci ildə erməni vəhşiləri azərbaycanlıları etnik təmizləməyə məruz qoymuşdular. Bu, XX əsrdə azərbaycanlıların öz qədim torpaqlarından - Qərbi Azərbaycandan birinci deportasiyası idi. Əfsuslar olsun, ondan sonra da bizim xalqımız iki deportasiyaya məruz qalmışdır. Aşıq Ələsgər ailəsi ilə birlikdə qonşu Kəlbəcər rayonuna köçmüşdür. Ancaq doğma Vətən, doğma torpaq onu yenə də Göyçə mahalına çəkirdi, baxmayaraq ki, iqlim, təbiət, gözəllik baxımından Kəlbəcər və Göyçə mahalı çox da fərqlənmir. Amma onun Vətən sevgisi, torpaq sevgisi o qədər güclü idi ki, bütün təhlükələrə baxmayaraq, o, təqribən üç ildən sonra öz doğma Ağkilsə kəndinə qayıtmış və bir neçə ildən sonra orada vəfat etmişdir".

Aşıq Ələsgər öz əsərləri ilə Azərbaycanın zəngin bədii irsinə misilsiz töhfələr bəxş edib. Azərbaycan milli bayramları və toylarının əvəzedilməz iştirakçısı olan Aşıq Ələsgərin yaradıcılığı əlvan xüsusiyyətlərə, müxtəlif mövzulara və süjet xəttinə malikdir. Aşıq Ələsgərin əsərləri dilinin sadəliyi, nitqin zənginliyi, müxtəlifliyi, emosionallığı və özünəməxsus bədii tapıntıları ilə seçilir.

Onun yaradıcılığında gənc nəslin əxlaqi-tərbiyəvi və vətənpərvər ruhda böyüməsi üçün yazdığı şeirlər-ustadnamələr də xüsusilə təqdirəlayiqdir. Aşıq Ələsgərin zəngin poetik irsi aşıqlar üçün əsl sənətkarlıq məktəbi olub.

## "ÜÇÜNCÜ ETNİK TƏMİZLƏMƏ DALĞASINA MƏRUZ QALMIŞ QƏRBİ AZƏRBAYCANLILAR ÖZ DƏDƏ-BABA TORPAQLARINA QAYIDACAQLAR"

Dünya elm, mədəniyyət, incəsənət xəzinəsinə böyük töhfələr vermiş Azərbaycan övladlarının yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi və xatirələrinin əbədiləşdirilməsi Azərbaycanımızda gözəl ənənəyə çevrilib. Bu ənənənin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Vurğulamaq yerinə düşər ki, Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyləri məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir. Böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilərkən əlamətdar hadisə baş vermiş, azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmışdı.

Ardı Səh. 3

# Saz - söz dünyasının ustadı - Aşıq Ələsgər

Əvvəli-Səh-2



Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamaqdadır. "Xalqımız deportasiyanın üçüncü dalğasına məruz qalanda erməni vandalları onun abidəsini dağıtmışdılar. Necə ki, indi biz hamımız bunu görürük. Qarabağda, Şərqi Zəngəzurda bizim tarixi abidələrimiz, görkəmli şəxsiyyətlərin abidələri, məscidlərimiz, saraylarımız, qəbiristanlıqlarımız erməni vandalları tərəfindən dağıdılmışdı. Bu praktika yeni deyil, əsrlər boyu bütün dünyanın gözü qarşısında bizə qarşı bu ədalətsizlik, bu vəhşilik törədilirdi", - deyə Prezident bildirib: "Onun yaradıcılığı Azərbaycan xalqının ürəyində böyük bir iz buraxmışdır ki, 200 il keçəndən sonra yenə də o, görkəmli şəxsiyyət, vətənpərvər insan, öz xalqını, Vətənini sevən insan kimi xalqımızın yaddaşında yer tutub. Əlbəttə ki, biz onun timsalında xalqımızın yüksək ruhunu görürük. Çünki yenə də deyirəm, 97 yaşında öz torpağından köçməyə məcbur olmuş insan 100 yaşında yenə də bütün təhlükələrə baxmayaraq, - o vaxt hələ o təhlükələr tam sovuşmamışdı, - yenə də öz Vətəninə qayıtmışdır".



Tarixin dönəmlərəinə nəzər salan Azərbaycan Prezidenti xalqımızın XX əsrdə üç deportasiya dalğasına məruz qaldığını - 1918-ci ildə birinci, 1940-50-ci illərdə ikinci və 1980-ci illərin sonları-1990-cı illərin əvvəllərində üçüncü deportasiyanın baş verdiyini bildirib: "İki deportasiyadan müəyyən müddətdən sonra Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıtmış, yəni, hamısı olmasa da, böyük bir qisim qayıtmışdır. Bu, bizdə haqlı olaraq əminlik yaradır ki, üçüncü etnik təmizləmə dalğasına məruz qalmış Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bunu deməyə əsas verən bir çox amillər var. Əlbəttə ki, Vətən sevgisi, o torpaqlar unudulmayıb və unudulmayacaq, o torpaqları görməyən Qərbi azərbaycanlıların sonrakı nəsilləri Vətən həsrəti ilə yaşayırlar".

## "ŞƏRQİ ZƏNGƏZURDAN OLAN SOYDAŞLARIMIZ HƏVƏSLƏ, SƏBİRSİZLİKLƏ O QAYIDIŞ GÜNÜNÜ GÖZLƏYİRLƏR"

Azərbaycan 30 ilə yaxın bir zamanda işğal altında olan ərazilərini azad etdi. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymadı və öz işğalçı siyasətini davam etdirdi. Artıq Azərbaycan müharibə yolu ilə öz torpaqlarını işğaldan azad edib və tarixi ədalət bərpa olunub. Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinin miqyası genişlənib və nəhəng işlər görülür. Vurğulayaq ki, artıq Prezidentimizin işğaldan azad olunan ərazilərə səfərləri tarixi hadisəyə çevrilir. Ermənilərin yaratmaq istədikləri mif tarixə qovuşub. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanları əzəli torpaqlarda əbədi yurd salırlar. Vətən müharibəsində qazandığımız Zəfərdən dörd il ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Böyük Qayıdışımızı reallığa çevirmək məqsədi ilə davamlı işlər görülür. Viran qalmış yurd yerlərinə əzəli sakinlər artıq sahibdirlər.

"Bu gün biz Azərbaycan xalqının əyilməz ruhunu Qarabağa və Şərqi Zəngəzura qayıdan soydaşlarımızın timsalında görürük. O torpaqları heç vaxt görməyən Qarabağdan, Şərqi Zəngəzurdan olan soydaşlarımız həvəslə, səbirsizliklə o qayıdış gününü gözləyirlər, Böyük Qayıdış proqramının icrasını səbirsizliklə gözləyirlər. Əslində, bu proqram artıq icra edilir. Heç vaxt o torpaqlarda yaşamamış, amma o torpaqlara qayıtmaq eşqi ilə yaşamış qarabağlılar bu gün Qarabağa qayıdırlar. Mən əminəm ki, biz eyni mənzərəni Qərbi Azərbaycana qayıdış dövründə də görəcəyik. Çünki bu gün Şuşada, Laçında, Xankəndidə, Xocalıda, Füzulidə uşaqlar, məktəblilər məktəbə gedirlər. Birinci dərs günü bunu göstərdi. Yəni, sözün əsl mənasında, bütün bu bölgələrdə və bütün Azərbaycanda bayram ab-havası idi. Qərbi Azərbaycandan olan soydaşlarımız da əminəm ki, eyni hissləri yaşayacaqlar", - deyə Prezident bildirib.

## "HƏDƏFLƏR HƏM HƏQİQƏTİ, ƏDALƏTİ VƏ HƏM DƏ REAL VƏZİYYƏTİ, REAL GÜCÜMÜZÜ ƏKS ETDİRMƏLİDİR"

Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun Qarabağda başlatdığı 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. Ötən ilin sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, ağ bayraq qaldırmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi.

2023-cü il tariximizdə Böyük Qayıdışın sürətli inkişaf mərhələsi oldu. "Həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı və ondan sonrakı dövr, yəni, bir il göstərdi ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, xalqımızın əyilməz ruhu olan yerdə heç bir qüvvə, heç bir təşkilat bu iradənin qabağında dura bilməz. Qarabağın və Şərqi Zəngəzurun azad edilməsi, suverenliyimizin tam bərpa olunması, - mən bunu bilirəm, - Qərbi azərbaycanlılarda da bu nikbinlik hisslərini, fikirlərini, ümidlərini daha da artırmışdır. Hətta işğal dövründə, 10 il, bəlkə də ondan da qabaq mən bəzi çıxışlarımda Qərbi Azərbaycanla bağlı fikirlərimi səsləndirirdim. Biz hər dəfə qarşıya hədəflər qoymalıyıq. Bu hədəflər həm stratejidir, həm taktikidir, həm qısamüddətlidir, həm uzunmüddətlidir. Amma hədəflər düzgün seçilməsə, heç bir nəticəyə nail olmaq mümkün olmayacaq. Hədəflər həm həqiqəti, ədaləti və həm də real vəziyyəti, real gücümüzü əks etdirməlidir. Nə qədər güclü olsaq, o qədər də bizim səsimiz eşidiləcək. Bu gün antiterror əməliyyatından keçən il ərzində biz bunu görürük... Qarabağı, Şərqi Zəngəzuru azad etmək, suverenliyi tam bərpa etmək Azərbaycan xalqının iradəsi hesabına, qəhrəman övladlarımızın qəhrəmanlığı, şücaəti hesabına mümkün olmuşdur".

Azərbaycan tarixi ədaləti bərpa edib və Azərbaycan əzəli torpaqlarına sahibdir. Qazandığımız uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, siyasi iradəsinin təzahürüdür. Dövlət başçımızın Azərbaycan xalqı qarşısında verdiyi bütün vədləri yerinə yetirib.

Hədəflər düzgün müəyyən edildiyindən qarşıya qoyulan məqsədlər öz həllini tapır. "Biz üç gün bundan əvvəl Anım Gününü qeyd etmişik. Bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların qəhrəmanlığı heç vaxt unudulmayacaq. Amma bizim təqvimimizə bu kədərli 27 Sentyabr günü ilə bərabər, iki bayram günü də əlavə edildi – 8 Noyabr və 20 Sentyabr günləri. Bunlar bayram və Zəfər günləridir. Bu Zəfər bizimlə əbədi yaşayacaq.

Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik".

***Zümrüd BAYRAMOVA***

# “Əlaqələrimiz bütün sahələrdə uğurla inkişaf edir”

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 30-da Rusiya Federasiyasının Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutskini qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, bu səfər ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə mühüm töhfə verəcək:***

“Bildiyiniz kimi, ötən ay Rusiya Federasiyası Prezidentinin ikitərəfli münasibətlərimizin bütün sahələrdə inkişafına çox böyük təkan verən dövlət səfəri oldu. Sizə də məlumdur ki, qanunvericilərimiz arasında fəal parlamentlərarası əlaqələr mövcuddur. Hökumətlərarası Komissiya uğurla fəaliyyət göstərir, humanitar əməkdaşlıq fəal inkişaf edir. Rusiya Prezidentinin səfəri çərçivəsində bütün bunlar və bir çox digər məsələlər müzakirə olunub. Biz münasibətlərimizin ardıcıl, dinamik xarakterini bir daha məmnunluqla qeyd etdik. Əlbəttə, ölkələrimizin siyasi qüvvələrinin partiyalararası əlaqələri də qarşılıqlı fəaliyyətin mühüm amilidir. Siz Rusiya Federasiyasının bütün regionlarında böyük nüfuza malik olan Rusiya Federasiyasının aparıcı siyasi partiyalarından birinə rəhbərlik edirsiniz. Partiyanızın nümayəndələrinin nümayiş etdirdiyi seçki kampaniyalarının uğurlu nəticələri siyasi qüvvənizin Rusiya Federasiyasının siyasi sistemində mühüm amil kimi böyük nüfuzundan xəbər verir.

Əlbəttə, biz bütün bunları böyük maraq və sevinclə müşahidə edirik. Sizə və rəhbərlik etdiyiniz partiyaya yeni-yeni uğurlar arzulayıram. Təbii ki, Dövlət Dumasının xarici siyasət istiqamətinin rəhbəri kimi siz, əlbəttə, gündəlik fəaliyyətinizdə Rusiya-Azərbaycan münasibətlərində əldə edilən uğurlarla tanış olursunuz. Düşünürəm ki, bu gün isə biz bu və digər məsələləri ətraflı müzakirə edəcəyik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirəcəyik.

Son olaraq, istərdim ki, gərgin iş cədvəlinizə baxmayaraq, vaxt tapıb Azərbaycanın Qarabağ bölgəsinə səfər etdiyinizə görə sizə təşəkkürümü bildirim. Sizin ziyarət etdiyiniz yaşayış məntəqələri arasında Şuşa şəhəri də olub. Bu, əlbəttə, səfərinizə xüsusi əhəmiyyət verir. Əminəm ki, Azərbaycan ictimaiyyəti də, ilk növbədə, keçmiş məcburi köçkünlər də Qarabağ bölgəsinə səfər etməklə bağlı qərarınızı layiqincə qiymətləndirəcəklər. Bir daha xoş gəlmisiniz.”



*Prezident İlham Əliyev Rusiya Dövlət Dumasında Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbərini qəbul edib*

Sonra Leonid Slutski çıxış edib:

“Möhtərəm, əziz İlham Heydər oğlu. Bizə qardaş olan Azərbaycana hər dəfə səfər etmək, Sizinlə görüşmək və Azərbaycanın milli iqtisadiyyatın inkişafı üzrə uğurlarını böyük məmnuniyyətlə vurğulamaq mənim üçün həm şərəf, həm də mühüm hadisədir. Heydər Əlirza oğlunun bütün vəsiyyətləri uğurla həyata keçirilir. Sosial siyasətə gəldikdə, o, hər bir ailəni əhatə edir, bütün insanlara aiddir. Ölkənizdə hər il çox ciddi humanitar layihələr reallaşdırılır.

Azərbaycanın mədəniyyət mərkəzi Şuşada olmaq mənim çoxdankı arzumun həyata keçməsi baxımından əlamətdar oldu. Deyə bilərəm ki, Qarabağ bölgəsi inanılmaz templərlə bərpa olunur. Artıq Füzulidə və Zəngilanda çox gözəl beynəlxalq aeroportlar var, üçüncü hava limanı sürətlə tikilir. Bu gün Şuşa möhtəşəm tikinti meydançasını xatırladır, tarixi obyektlər bərpa olunur. Mən Şuşada olduğum üçün xoşbəxtəm. Bütün bunlar mənim üçün çox əlamətdar oldu. Ona görə də səfərə xüsusi olaraq bir gün əvvəl gəldim. Qarabağın Azərbaycanın tərkibinə qayıtması ilə nəticələnən antiterror əməliyyatının uğurlarının ən azından bir hissəsini öz adına çıxan bəzi region ölkələrinə münasibətdə xüsusi bir məqamı da qeyd etmək istəyirəm, - bununla yanaşı, milli miqyasda yoxsulluqla mübarizə üzrə strategiya uğurla hazırlanandan sonra Azərbaycan enerji cəhətdən müstəqil ölkə oldu, Sizin dahi atanızın, müasir Azərbaycan dövlətinin banisi, bizim də Rusiyada xatirəsini əziz tutduğumuz Heydər Əlirza oğlu Əliyevin bəlkə də ən böyük vəsiyyəti həyata keçdi. Ənənəyə uyğun olaraq, bu gün Moskvaya uçmazdan əvvəl mütləq onun məzarını ziyarət edəcəyəm, - burada mən Qarabağın qaytarılmasını nəzərdə tuturam. Bu məsələdə Azərbaycandan, Azərbaycan rəhbərliyindən, Azərbaycan xalqından, Azərbaycan Silahlı Qüvvələrindən başqa heç bir ölkənin hər hansı bir xidməti yoxdur. Bu, mühüm milli məsələ olmaqla yanaşı, Cənubi Qafqazda sabitlik, uğurla həll edilən tarixi vəzifədir.

Bu gün Azərbaycanın Qarabağ bölgəsində sürətli templərlə yeni iş yerlərinin yaradılması, o cümlədən elmi əsaslı klasterlərin həyata keçirilməsi prosesi gedir. Bəzilərinin Qarabağın tezliklə azad ediləcəyinə inanmadığı kimi, bu gün də kimsə bir neçə ildən sonra Qarabağda nələrin yaradılacağını təsəvvür etmir. Amma mən öz gözlərimlə gördüm ki, bu bölgə yenidən çiçəklənəcək, bərəkətli torpaqlara çevriləcək və Rusiya ilə Azərbaycanın mühüm infrastruktur şirkətləri də daxil olmaqla, əziz İlham Heydər oğlu, Sizin də müasir Azərbaycanın rəhbəri vəzifəsində çoxillik fəaliyyətinizi həsr etdiyiniz insanların rifahı naminə Qarabağda yeni infrastruktur layihələri həyata keçiriləcək.

Dünən hamımızın dərindən hörmət etdiyi, sevimli Polad Bülbüloğlunun mənimlə birlikdə olması da əlamətdar idi. O, 18 il Azərbaycanın mədəniyyət naziri olub. Həmçinin o, Azərbaycanın xarici siyasət xəttinin Rusiya istiqamətini səfir qismində layiqincə təmsil edərək Moskvada diplomatik korpusun duayeni qismində çalışıb. İndi isə Milli Məclisdə onun atasının da dünyaya gəldiyi Qarabağ bölgəsini layiqincə təmsil edir. Dünən biz Bülbülün tarixi ev-muzeyində olduq, bu vaxta qədər Özbəkistan, Qazaxıstan, Belarus prezidentləri, həmçinin digər müasir siyasi və ictimai xadimlər də burada olublar. Beləliklə, dünən mənim üçün ikiqat əlamətdar səfər oldu. Ona görə də indi aktual, ikitərəfli gündəliyimizdə olan, o cümlədən, əlbəttə ki, Milli Məclislə ən uğurlu şəkildə inkişaf edən parlament diplomatiyası müstəvisində məsələləri müzakirə edəcəyik.

Möhtərəm əziz İlham Heydər oğlu, dünən Şuşada olandan sonra bir daha Sizin qonağınız olaraq qəlbi Azərbaycanla döyünən, o cümlədən Azərbaycanın hüdudlarından kənarda olanları Qarabağın qaytarılması münasibətilə təbrik etmək istəyirəm. Qarabağ Azərbaycandır!”

Prezident İlham Əliyev: Çox sağ olun.

# İcma: Prezidentin tarixi çıxışı qayıdışımızın carçısıdır

Qərbi Azərbaycan İcması bəyanat yayıb. Bəyanatda deyilir: ”Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Bakının mərkəzində böyük el sənətkarı, Azərbaycan poeziyasının dühası və Göyçə aşıq məktəbinin parlaq siması olan Aşıq Ələsgərin (1821-1926) abidəsinin açılışını etmiş və açılış mərasimində Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların qayıdış məsələsi ilə bağlı tarixi çıxış etmişdir.

Qeyd edək ki, Aşıq Ələsgər Qərbi Azərbaycanda - Azərbaycan aşıq sənətinin tarixi mərkəzlərindən olan Göyçə mahalında yaşayıb-yaratmış, misilsiz bədii-estetik ustalığı ilə xalqımızın ruhunu əks etdirən əsərlər yaratmış və ozan-aşıq sənətinin minillik ənənələrinə yeni nəfəs vermişdir.

1918-ci ildə Ermənistan daşnak hökuməti tərəfindən bütün Göyçə əhalisinin qovulması və onların 1921-ci ilə qədər qaçqın olaraq yaşamaq məcburiyyətində qalmalarına və sonralar Ermənistan SSR hökumətinin güclü təzyiqlərinə rəğmən Göyçə aşıq məktəbi Sovet dövründə inkişaf edirdi. Bu işlərdə Ümummilli Lider Heydər Əliyevin əvəzedilməz xidmətləri olmuşdur. Məhz onun şəxsi səyləri ilə Aşıq Ələsgərin 150 illik yubileyi SSRİ-də dövlət səviyyəsində keçirilmiş və aşığın doğma Ağkilsə kəndində qəbirüstü abidəsi ucaldılmışdır. Təəssüf ki, Ermənistan hökuməti, oradakı əksər Azərbaycan mədəni irs nümunələri kimi, bu abidəni də dağıtmışdır.

Vaxtilə azərbaycanlıların çoxluq təşkil etdiyi, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin mərkəzlərindən olan Qərbi Azərbaycan mahallarında etnik təmizləmə nəticəsində bir nəfər də azərbaycanlı qalmamış, oradakı Azərbaycan mədəni irsi ciddi zərər görmüşdür. Prezident İlham Əliyevin Aşıq Ələsgər irsini yaxından himayə etməsi, həm də Qərbi Azərbaycana qayıdış məsələsinə, Ermənistanın işğal, etnik təmizləmə və irqi ayrı-seçkilik siyasətindən zərər görmüş Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinə diqqətinin göstəricisidir. Prezidentin çıxışından da göründüyü kimi, Aşıq Ələsgərin qaçqınlıqla keçmiş ağrılı həyat yoluna dərindən bələd olması, onun Qərbi azərbaycanlıların taleyinə nə qədər yaxından qayğı göstərdiyinin təzahürüdür.

Prezident İlham Əliyevin sərəncamı ilə Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə aşıq sənətinin UNESCO-nun Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilməsi Aşıq Ələsgər yaradıcılığının ümumbəşəri dəyər kimi əbədiləşdirilməsində əvəzsiz rol oynayıb.

Prezident İlham Əliyevin Qərbi azərbaycanlıların öz dədə-baba torpaqlarına qayıdacağına olan inamını ifadə etməsi bizim üçün böyük motivasiya mənbəyidir. Qarabağ və Şərqi Zəngəzurun azad edilməsi və orada Böyük Qayıdış proqramının həyata keçirilməsi, bizim də doğma yurdlarımıza qayıdacağımız günün uzaqda olmadığını göstərir.

Biz, Qərbi Azərbaycan İcması olaraq, cənab Prezidentin ədalətin bərpasına, xalqımızın birliyinə, və əyilməz ruhuna yönəlmiş çağırışlarını tam dəstəkləyirik. Doğma torpaqlarımıza sülh yolu ilə, ləyaqətlə və təhlükəsiz şəkildə qayıdışımızın təmin edilməsi üçün dövlətimizin atacağı bütün addımlarda bundan sonra fəal şəkildə iştirak edəcəyik.

Prezidentin ifadə etdiyi kimi, Aşıq Ələsgərin həyat yolu bütün Qərbi azərbaycanlıların taleyini təcəssüm edir. Sözə, sənətə, humanist dəyərlərə bağlı olan, vətənpərvər şair öz doğma yurdundan qaçqın düşsə də, ruhdan düşməmiş, 100 yaşında öz yurduna qayıdaraq, yandırılmış evini bərpa etmiş və ömrünün son günlərinə qədər orada yaşamışdır. Biz ruhdan düşmürük; necə ki, 1921-ci ildə qayıtdıq, yenə də qayıdacağıq. Aşıq Ələsgərin və bütövlükdə Azərbaycan aşıq sənətinə göstərdiyi diqqət və qayğıya görə cənab Prezident İlham Əliyevə və Birinci xanım Mehriban Əliyevaya bir daha dərin təşəkkürümüzü bildiririk. İnanırıq ki, milli birlik və iradəmiz ilə tarixin ədalətsiz səhifələrini çevirərək doğma yurdlarımıza qayıdacağıq. Prezidentin çıxışını yekunlaşdırdığı sözlər, bizim qayıdışımızın carçısı olan tarixi ifadələrdir:

”Bu gün Qərbi azərbaycanlıların görkəmli nümayəndəsinin abidəsinin ucaldılması təbii olaraq, ilk növbədə, Aşıq Ələsgərin xatirəsinə Azərbaycan xalqının hörmətinin əlamətidir. Ancaq, eyni zamanda, bu abidə bütün Qərbi azərbaycanlıları və bütün Azərbaycan xalqını yenə də bir amal uğrunda birləşməyə dəvət edən hadisədir. Biz o günü səbirsizliklə gözləyirik, inanırıq, mən də inanıram, siz də inanırsınız. Gün gələcək biz Aşıq Ələsgərin ermənilər tərəfindən dağıdılmış abidəsini bərpa edəcəyik və Ağkilsə kəndində buna oxşar mərasim keçirəcəyik.” Biz Qərbi azərbaycanlılar qayıdışımıza inanırıq!”

# YAP İdarə Heyətinin iclası keçirilib

Sentyabrın 30-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclası açıq elan edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov cari ilin sentyabrın 1-də Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş növbədənkənar seçkilərdə deputat mandatı qazanmış partiya üzvlərini təbrik edərək, onlara fəaliyyətlərində uğurlar arzuladı. O vurğuladı ki, parlament seçkiləri müstəqillik tariximizdə ilk dəfə olaraq suveren Azərbaycanın bütün ərazilərində keçirildi: "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi










nailiyyətlər və şanlı zəfərlərdən sonra bu seçkilərə "Yeni dövrə Yeni Azərbaycanla!" şüarı ilə qatılan Yeni Azərbaycan Partiyası parlamentdə 68 mandat əldə edərək növbəti dəfə inamlı qələbə qazandı. Seçkilərin nəticələri xalqın Ulu Öndər Heydər Əliyevin siyasi mirası olan və Prezident İlham Əliyevin rəhbərliyi ilə şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasına sarsılmaz inam və etimadının, birmənalı dəstəyinin növbəti təsdiqi oldu".

YAP Sədrinin müavini bildirdi ki, sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeddinci çağırış Milli Məclisin ilk iclasında konseptual və proqram xarakterli çıxışı zamanı qazanılan uğurlarla yanaşı, qarşıda dayanan mühüm vəzifələrə də toxundu: "Xüsusilə, cənab İlham Əliyevin ideoloji təhlükəsizliyin təmin edilməsi ilə bağlı fikir və tövsiyələri Yeni Azərbaycan Partiyasının üzvləri olaraq daha məsuliyyətlə çalışmağımızı zəruri edir. Heç şübhəsiz, milli-strateji hədəflərdən irəli gələn bu vəzifələrin yerinə yetirilməsi yeni mərhələdə Azərbaycanın qüdrətinin daha da artmasını şərtləndirəcək. İnanırıq ki, indiyə qədər olduğu kimi, bundan sonra da xalqımızın iradəsi, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti sayəsində ölkəmizə qarşı məkrli planların və təhdidlərin qarşısı qətiyyətlə alınacaq, Azərbaycan mühüm uğurlara imza ataraq bütün strateji hədəfləri inamla reallaşdıracaqdır".

Daha sonra iclasın gündəliyində duran məsələlərə baxılıb. İclasda ilk olaraq Vüqar Gəncəli oğlu Rəhimzadənin YAP Xətai rayon təşkilatının, Samir Əhməd oğlu Vəliyevin isə YAP Nərimanov rayon təşkilatının sədri vəzifəsindən azad olunması məsələsinə baxılıb. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu məsələ partiyanın VII Qurultayında qəbul olunmuş Nizamnamənin tələblərindən irəli gəlir. Hər iki şəxs Milli Məclisin deputatı seçildiyi üçün rayon təşkilatının sədri vəzifəsindən azad olunmalıdırlar. Onların partiya işində xidmətlərini yüksək dəyərləndirən Tahir Budaqov hər iki şəxsə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra Yeni Azərbaycan Partiyasının üzvlüyündən xaric edilmək üçün YAP yerli təşkilatlarının təqdimatlarına baxılıb. Məsələ haqqında YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri - Azər Badamov, Mübariz Qurbanlı, Eldar İbrahimov, Musa Quliyev, Bahar Muradova, Hikmət Məmmədov, Bayram Aslanov və Arif Rəhimzadə çıxış etdikdən sonra müvafiq qərar qəbul olunub.

Sonra iclasda YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov "Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və yerli təşkilat Aparatları tərəfindən mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi üçün qəbul edilən konkret prinsiplər, əsaslar, qaydalar və metodların məcmusunu əks etdirən, eləcə də maliyyə-təsərrüfat əməliyyatları üzrə bir sıra normativləri müəyyən edən uçot siyasəti"ndə dəyişiklik edilməsi məsələsinə dair təqdimatla çıxış edib, İdarə Heyətinin üzvlərini maraqlandıran sualları cavablandırıb.

Məsələ ətrafında müzakirələrdən sonra sözügedən sənədə dəyişikliklər təsdiq edilib.

İclasın sonunda cari məsələlər müzakirə edilib. Ölkəmizin növbəti mühüm siyasi proseslər ərəfəsində olduğunu deyən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qarşıdan bələdiyyə seçkilərinin gəldiyini və partiyamızın bu seçkilərə də yüksək səviyyədə hazırlaşdığını diqqətə çatdırıb.

# Türk ekspert: "Rəsmi Parisin Azərbaycana qərəzli münasibəti Fransadakı müəyyən təbəqənin marağını əks etdirir"

***Fransa Prezidentinin BMT kürsüsündə Azərbaycana qarşı işlətdiyi ifadələr çox uzun zaman davam edən qərəzli düşüncənin fərqli təzahürü idi. Əslində bu ifadələr gözlənilməz deyildi. Rəsmi Parisin Azərbaycana qarşı bu münasibəti artıq uzun zamandır davam edir və xroniki hal alıb deyə bilərik. Davam edəcəyini də düşünürəm. Çünki Fransa rasional və praqmatik bir ölkə kimi davranmır. Oradakı bu münasibət müəyyən təbəqənin mənfəətini əks etdirir. Bu fikirləri AZƏRTAC-a müsahibəsində türkiyəli siyasi ekspert Bilgehan Öztürk ifadə edib.***

Fransadakı erməni diasporunun ölkə daxilindəki anti-Azərbaycan fəaliyyətlərinə vurğu edən siyasi şərhçi deyib: "Erməni diasporunun bu açıqlamalara təsirini unutmaq olmaz. Onlar xüsusilə Qarabağ Zəfərini, o bölgələrin işğaldan azad edilməsi həqiqətini heç bir şəkildə qəbul edə bilmirlər. Bu səbəbdən də, xüsusilə bəzi Avropa ölkələrindəki Azərbaycan və ya Türk düşmənçiliyinin büruzə verilməsində Fransa liderlik edir".

Rəsmi Parisin Azərbaycana qarşı əsassız ittihamlarının təkcə Qarabağla bağlı olmadığını qeyd edən Öztürk deyib: "Son



illərdə Fransanın nəzarəti altında olan Yeni Kaledoniyada Parisin müstəmləkəçilik siyasətindən narazılıq ifadə edilir. Oradakı xalq öz hüquqları və muxtariyyətlə bağlı tələblər irəli sürür. Bununla bağlı çoxsaylı etiraz aksiyaları da keçirilir. Fransa burada da Azərbaycanı günahlandırmağa çalışır. Rəsmi Parisin bununla bağlı Azərbaycana qarşı absurd ittihamları Yeni Kaledoniyadakı bu hadisələr cərəyan etməyə başladıqda artıq özünü göstərdi. Bunların hamısı məntiqdən kənardır. Bu, Fransanın Azərbaycana qarşı deyil, rəsmi Parisin erməniپərəst fikirləri və bundan əldə etdiyi mənfəətin təzahürüdür. Bu gün ermənilər "məzlum", öz torpaqları uğrunda mübarizə aparan Azərbaycanı isə "təzyiq göstərən" tərəf kimi qələmə verməyə çalışması da elə bu zehniyyətin göstəricisidir. Türk milləti olaraq biz artıq bunlara alışmışıq. Çünki xüsusilə Qərbin bəzi dairələri hər fürsətdə türklərə qarşı qərəzli münasibətini göstərməyi sanki özlərinə borc bilirlər. Fikrimcə, bütün bunları cəmləşdirdikdə mövzu tam şəffaflığı ilə özünü izah edir".

# Azərbaycanın Zəfəri - "Dəmir yumruq" əməliyyatı

*İlham Əliyev: "Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik"*





***Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı zamanı rəşadətli ordumuz düşmənə ilk gündən başlayaraq ağır zərbələr vuraraq, öz torpaqlarını erməni təcavüzündən azad etdi. Vətən müharibəsinə qədər Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışırdı. Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı kimi çıxış edən BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edib ki, bu qətnamələrə əməl olunmayıb.***

Qətnamələrdə Azərbaycan ərazilərinin işğalı pislənilib, güc tətbiqi vasitəsilə ərazi iddialarının reallaşdırılmasının qəbuledilməzliyi vurğulanıb. Ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı bir daha təsdiq edilib və işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunub. Bu və ya digər sənədlərə məhəl qoymayan Ermənistan işğalçılıq siyasətindən əl çəkmir və Azərbaycanın sərhədlərini atəşə tutur, dinc əhalini, mülki obyektləri və yaşayış tikintilərini hədəfə alırdı.

2020-ci ilin 12 iyul və 27 avqust tarixlərində Ermənistan hərbi hissələrinin Azərbaycan sərhədlərində törətdiyi təxribatlar Ermənistanın çirkin niyyət və planlarını əks etdirirdi. Ermənistanın bu və ya digər təxribatları Azərbaycan Ordusunu cavab tədbirlərinə vadar etdi və 44 gün davam edən Vətən müharibəsində Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Azərbaycan ordusunun gücü, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi nəticəsində təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan Ermənistan döyüş meydanında artıq uduzduğunu ilk günlərdən dərk etdi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Hərbi əməliyyatların birinci gününün sonunda biz Kəlbəcər rayonunda, Murovdağda və Ağdərə istiqamətində strateji əhəmiyyətli yüksəklikləri, həmçinin 6 kəndi – Füzuli rayonunda 4 və Cəbrayıl rayonunda 2 kəndi azad etdik. Biz elə ilk gündə düşmənin müdafiə xəttini yarmağa nail olduq və bundan sonra bütün 44 gün ərzində yalnız irəli getdik".

## "BU, LABÜD İDİ"

Xarici mətbuata veriyi müsahibələrinin birində Azərbaycan Prezidenti "Gəlin, həmin günə - 2020-ci il sentyabrın 27-nə qayıdaq. Həmin gün necə başlandı? Sizə necə məruzə etdilər ki, Ermənistan döyüş əməliyyatlarına başlayıb, ümumiyyətlə, həmin gün hadisələr necə inkişaf edirdi?" sualını cavablandırarkən bildirib ki, müdafiə naziri mənə məlumat verdi ki, təmas xəttindəki mövqelərimiz və bəzi yaşayış məntəqələrimiz Ermənistan tərəfindən artilleriya atəşinə məruz qalıb: "Adekvat cavab vermək qərara alındı və beləliklə, biz müharibəyə qoşulduq. Məlum oldu ki, bu, labüd idi".

Azərbaycan ordusu ilk gündən düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu və 44 gün ərzində yalnız qələbə xəbərləri aldıq. Azərbaycan xalqı, ordumuz Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və Vətən müharibəsində öz gücünü nümayiş etdirdi. Ermənistan və onun havadarları tərəfindən hərbi əməliyyatları dayandırmaq üçün Azərbaycana diplomatik və siyasi təzyiqlər göstərilsə də Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi hər şeyi demiş oldu. Dövlət başçısının dünyanın aparıcı mediasına verdiyi 30-a yaxın müsahibəsində Azərbaycanın iradəsini ortaya qoymuş oldu.

## VƏTƏN MÜHARİBƏSİNİN XRONİKASI

Vətən müharibəsi otuzillik işğala son qoyan parlaq Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. 30 sentyabr - müharibənin 4-cü günü: Müdafiə Nazirliyinin məlumatına görə, əks-hücum əməliyyatının başlandığı dörd gün ərzində düşmənin ümumilikdə 2300-dən çox canlı qüvvəsi məhv edilib. Bundan başqa, Ermənistan ordusunun 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dən çox hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 50-dən artıq tank əleyhinə vasitələr, 55-dən çox avtomobil texnikası sıradan çıxarılıb. Təkcə sentyabrın 30-da Ermənistan ordusunun 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib. Düşmənin artilleriya atəşi nəticəsində Horadiz şəhərində bir mülki şəxs həlak olub, üç nəfər isə xəsarət alıb. Bununla da Ermənistan silahlı qüvvələrinin xain hücumları zamanı həlak olan mülki şəxslərin sayı 15-ə, xəsarət alanların sayı isə 49-a çatmış oldu.

Müharibənin ilk günlərində sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşdülər. Azərbaycan Prezidenti çıxışında "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar", - deyə bildirmişdir: "Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər".

Azərbaycan Ordusunun qarşısında davam gətirə bilməyən ermənilər təcavüzkar siyasətlərini davam etdirərək, dinc əhalini hədəfə aldılar və yaşayış məntəqələrini ballistik raketlərdən atəşə tutdular. Dövlət başçısı tərəfindən prioritet elan edilən ordu quruculuğu sayəsində Azərbaycan Ordusu ən müasir silahlarla silahlanmış, dünyanın ən güclü orduları sırasında özünə layiqli yer tutmuşdu. Peşəkarlığı yüksək olan Azərbaycan Ordusunun ən yüksək texnologiyalara məxsus hərbi texnikalarla silahlanması və ölkəmizin də inkişaf etmiş hərbi-sənaye kompleksinə malik olması qələbəmizi şərtləndirən amillərdəndir. Azərbaycan Ordusu həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Son illərdə ordu quruculuğunda əhəmiyyətli islahatlar həyata keçirilib, bu məsələ ilə bağlı dövlət başçısı tərəfindən ardıcıl olaraq addımlar atılıb ki, bunun da müsbət nəticələri özünü 44 günlük Vətən müharibəsində büruzə verdi. "Silahlı qüvvələrin döyüş qabiliyyətinin artırılması üzrə gündəlik böyük iş aparılırdı", - deyən Cənab Prezident qeyd edib ki, döyüş qabiliyyətli silahlı qüvvələri olmayan ölkə necə texniki vasitələrə malik olsa belə, onun döyüşdə, xüsusən müharibədə, özü də belə əlverişsiz coğrafi şəraitdə qalib gəlməsi mümkün olmazdı: "Əslində, bu tədbirlər kompleksi onunla nəticələndi ki, biz çox güclü hərbi tərkib hissə yaratdıq və İkinci Qarabağ müharibəsi bunu göstərdi".

## "ONLAR DÖYÜŞ MEYDANINDA MƏĞLUBİYYƏTİN ACIĞINI ÇIXMAĞA VƏ YA BİZDƏN QİSAS ALMAĞA ÇALIŞIRDILAR"

Dövlət başçısı Tərtər şəhərinin cəbhə xəttinin bilavasitə yaxınlığında yerləşdiyindən daha çox zərər çəkdiyini ifadə edib: "Bu kiçik şəhərə 16 mindən çox mərmi atılıb. Beləliklə, onlar döyüş meydanında məğlubiyyətin acığını çıxmağa və ya bizdən qısas almağa çalışırdılar. Bu, birincisi. İkincisi, onlar düşünürdülər ki, bizi dayandıracaqlar. Onlar fikirləşirdilər ki, zərər çəkmiş insanlar öz ölkəsinin hakimiyyətindən hərbi əməliyyatların dayandırılmasını tələb edəcəklər, onların niyyəti belə idi. Lakin onlar yanılırdı. Onlar ordunun döyüş qabiliyyəti və Azərbaycan xalqının mənəvi ruhu baxımından bizi lazımınca qiymətləndirmirdilər".

Bacarıqlı, təcrübəli komandanlıq altında idarə edilən döyüşlərdə meydanından vahimə içində qaçan düşmənin yüzlərlə müxtəlif döyüş texnikası, silah-sursatı məhv edildi və qənimət kimi ələ keçirildi. Canlı qüvvə və döyüş texnikası sarıdan böyük itkilərə məruz qalan Ermənistan ordusu darmadağın edildi və "Dəmir yumruq" əməliyyatı Azərbaycanın Zəfəri, Qələbəsi ilə başa çatdı.

Dövlət başçısı müharibənin gedişində olan bütün reallıqlara nəzər salaraq 44 günlük tarixi müharibədə baş verənləri bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırmış oldu. Düşmən tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi ilə reallaşdı.

***Zümrüd BAYRAMOVA***

# Avropa İttifaqından növbəti DİLETANTLIQ

***Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsinin sözçüsü Peter Stanonun Ermənistanın dövlət mediasına müsahibəsində dediklərindən belə görünür ki, o özünü Avropa İttifaqının yox, Ermənistanın rəsmisi kimi aparır. Hətta həmin müsahibənin süni, məqsədyönlü şəkildə təşkil edildiyi də dərhal hiss olunur və yalana əl atmaqla Stano öz diletantlığı ilə seçilir.***




## Doğan suallar Piter Stanonun mahiyyətini, əsl diletant olduğunu ortaya qoyur

Peter Stanonun yuyulmamış qaşıq kimi qəflətən ortaya atılması, mənasız fikirlər səsləndirməsi bir sıra suallar doğurur. Sözsüz ki, doğan suallar da həmin sözçünün mahiyyətini, yəni, əsl diletant olduğunu ortaya qoyur. İstənilən halda Ermənistanı müdafiə etmək kimi bir məqsədin olduğu göz önündədir və avropalı diplomat tərəfindən uydurulanların əsassız olduğu, arqumentlərinin də saxta, eləcə də boş olması bir sıra məqamlara aydınlıq gətirmək üçün kifayət edir. Daha dəqiq desək, Stanonun məhz belə "canfəşanlığının" pərdəarxasında nələrin olması ortaya çıxan suallardan aydın olur.

Maraqlıdır, nəyə görə Stano iddia edir ki, dırnaqarası həmin o "müşahidə missiyası" Ermənistan hakimiyyətinin tələbi ilə fəaliyyətə başlayıb? Bunu ondan soruşan olubmu və ümumiyyətlə, Avropa İttifaqı hansısa ölkə, xüsusən də Ermənistan hakimiyyətinin tələbi ilə mi öz işini qurur? Hətta belədirsə əgər, niyə Aİ rəsmisi öz fikrini bəs əsaslandırmır və arqumentlə çıxış etmir? Həmin o dırnaqarası "müşahidə missiyası" dediyinin mülki və silahsız olduğunu iddia etdiyi zaman, məqsədinin də regiona sülh gətirmək olduğunu söylədiyi anda Stano görəsən niyə utanmır? Yəni, yalan danışmağa o qədər alışqanlıdır ki, həmin yalanları söylədiyi zaman nəinki üzü qızarmır, heç tükü də tərpənmir? Belə çıxır ki, diletantlıq ənənəsinə sadiqdir və buna çoxdan öyrəncəlidir.

## Rəsmi Bakının mövqeyi nəzərə alınmırsa, deməli, missiya heç də qərəzsiz deyil

Haqqında qeyd olunan həmin o "missiyaya" dair razılaşmanın Ermənistanın tələbi ilə deyil, 2022-ci ildə Azərbaycanın da iştirak etdiyi Praqa görüşündə əldə olunduğu faktı onu deməyə əsas verir ki, Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsinin sözçüsü Stanonun dedikləri ağ yalandır. Xüsusən də missiyasının iki ay yarım müddətində Ermənistanın Azərbaycanla sərhəd bölgəsində fəaliyyət göstərəcəyinin rəsmi Bakı ilə də razılaşdırılması faktının üzərindən də Stanonun keçməsi onun nə dərəcədə diletant olduğunu təsdiqləyir. Soruşmaq ayıb olmasın, missiyanın fəaliyyəti 2022-ci ilin 19 dekabr tarixində başa çatmalı olduğu halda, nədən və niyə uzunmüddərli oldu? Nəyə görə əvvəlcə missiyada fəaliyyət göstərənlərin sayı 150 olduğu halda, sonra 1500 nəfərə çatdırılmalı oldu və hazırda əvvəlki sayından düz on dəfə çoxdur? Bəs Kanadanın məhz Aİnin "müşahidə missiyasında" təmsil olunmasını Peter Stano necə izah edə bilər? Əlbəttə ki, bu suallar qarşısında nəinki Stano, onun ağası sayılan Borel də aciz qalar. Bəli, ola bilsin ki, onun da əsassız fikirləri ola bilər, amma həmin fikirlər də haqqında qeyd olunan diletantın fikirlərindən zərrə qədər üstün ola bilməz. Missiyanın məqsədinin həqiqətən də mülki olduğunu, sülhə nail olmağa xidmət etdiyini, qərəzsiz olduğunu iddia edən Stano ilk öncə həmin missiyanın uzunmüddətli fəaliyyətə başlamaq məsələsində Azərbaycanın mövqeyinin niyə nəzərə alınmadığını izah etsin. Fəaliyyət coğrafiyası Azərbaycanla sərhəddə olduğu halda, rəsmi Bakının mövqeyi nəzərə alınmırsa, deməli, missiya heç də qərəzsiz deyil.

## Kəşfiyyatçıların yerləşdirilməsinə müşahidə missiyası demək yalançılıqdır

Görünən odur ki, "müşahidəçi" adı altında bölgəyə peşəkar olan keçmiş hərbçilər və kəşfiyyatçılar yerləşdirilib. Təbii ki, onların da əsas missiyası sərhəddə yerləşdirilmiş Ermənistan qoşunlarını təlimatlandırmaq, koordinasiya etməkdir. Elə məhz müşahidəçilərin sayının artırılmasının məqsədi də bundan ibarət olduğu artıq özünü göstərir. Tamamilə aydın şəkildə bəlli olur ki, missiya heç də Stanonun iddia etdiyi kimi, "mülki və silahsız" deyil və məqsəd tamamilə başqadır. Bəs belə olan halda Stanonun dediyi nədir, yalan, uydurma, qondarma deyilmi və buna görə onu diletant adlandırmaqda haqlı deyilikmi? Əlbəttə ki, tamamilə haqlıyıq.

Daha bir məqam diqqəti cəlb etməyə bilməz və Peter Stanodan soruşmaq istərdik ki, əgər həmin o missiya mülkidirsə, sülhə xidmət edirsə, bəs sərhəd zonasında ermənilərin törətdikləri təxribata nə ad qoyulsun? Bəs nə üçün həmin o guya sülhə xidmət edən missiya erməni təxribatlarının qarşısını almır? Həmin o dırnaqarası "müşahidə missiyası" yəni ermənilərin təxribatlarının dayanmadığını, davamlı xarakterdə olduğunu müşahidə edə bilmirmi? Maraqlıdır ki, onda nəyi müşahidə edir? Görünür elə kəşfiyyaçıların yerləşdirildiyi missiya olduğu üçün "müşahidə" etdiyi də tamamilə başqadır. Daha dəqiq desək, Aİ-nin yerləşdirdiyi müşahidə missiyası yox, kəşfiyyatçılıq missiyasıdır və Stano da bunu etiraf etməməklə yalançılıq edir. Bir sözlə, kəşfiyyatçıların yerləşdirilməsinə müşahidə missiyası demək yalançılıqdır və bu yalançılığı Aİ rəsmisi özünə rəva bilir.

## Özünü xəbərsiz kimi göstərmək bir diplomat üçün rüsvayçı haldır və onu yalançı kimi xarakterizə etməyə əsas verir

"Müdafiə potensialı üzərində işləmək və təhlükəsizlik sahəsində tərəfdaşlarını seçmək Ermənistanın suveren hüququdur", deyən Peter Stefano hədsiz dərəcədə həyasızlıq edir. Əvvəla, Ermənistan kimdən müdafiə olunur ki, müdafiə potensialı üzərində işləmək, təhlükəsizlik sahəsində tərəfdaşlarını seçmək barədə düşünsün və guya sülh barədə düşündüyünü iddia edən bir ölkə, eləcə də missiyanın müdafiə barədə düşünməsi absurddur. Əgər Stefano Ermənistanın silahlanmasından xəbərsiz olduğunu göstərmək istəyirsə, lap ağ edir və yalançılığın maksimum həddini belə keçmiş olur. Həyasızcasına diletantlıq edir. Çünki Ermənistanın silahlanması da elə onun və ağasının nəzarəti, dəstəyi ilə reallaşır. Bu məlumatları, yəni Aİ tərəfindən Ermənistanın hərbi baxımdan dəstəklənməsini təsdiq edən kifayət qədər fakt və arqumentlər var və mediaya bu barədə yetərincə informasiyalar sızıb. Deməli, yenə də, bu rakursda da avropalı diplomat məhz diplomat kimi davranmır, diletantlıq edir. Hər halda, razılaşmaya görə Avropa İttifaqının Ermənistana təqribən 10 istiqamətdə dəstək verməsinin fonunda hansısa başqa iddiada olmaq, özünü xəbərsiz kimi göstərmək ən azından bir doplomar üçün çox rüsvayçı haldır və onu yalançı kimi xarakterizə etməyə əsas verir.

## Ermənistanın silahlandırılmasına, hərbi dəstək verilməsinə hansısa don geyindirmək qəbuledilməzdir

Razılaşmaya əsasən Avropa İttifaqının Ermənistana on istiqamətdə dəstək verməsinin fonunda Peter Stanonun dediklərinin nə dərəcədə yalan, özünün də hansı həddə yalançı və diletant olduğuna zərrə qədər şübhə yeri qalmır. Əgər, qazılaşmada qeyd olunduğu kimi, Avropa İttifaqı Ermənistan ordusunu Avropa Sülh Fondu çərçivəsində maliyyələşdirəcəksə, müdafiə və təhlükəsizlik məsələləri üzrə mütəmadi olaraq məsləhətləşmələr aparacaqsa, bəs hansı üzlə "Ermənistanın öz süveren hüququ" deyə bir cəfəngiyyat ortaya atılır? Ermənistan və Azərbaycanla sərhəddə müdafiə infrastrukturun, eləcə də mühəndis istehkamlarının yaradılmasına Aİ tərəfindən dəstək göstəriləcəyi razılaşmada qeyd olunursa, buna nə ad qoymaq olar? Bu, Ermənistanın Avropa İttifaqı tərəfindən birbaşa dəstəklənməsi demək deyilmi? Göründüyü kimi, qondarma Aİ "müşahidə missiyası" Azərbaycanla sərhəddə Ermənistanın istehkamlar yaratmasında birbaşa iştirakçıdır. "Mülki" adı altında missiyanın məqsədinin ilk növbədə Rusiya sərhədçilərinin yerini doldurmaq olduğu da göz önündədir və bütün bunların fonunda missiyanın "silahsız" olmadığına dair fikirlər və iddialar həddindən artıq dərəcədə gülüncdür. Eyni zamanda, avropalı diplomatın Ermənistanın silahlanmasını əsaslandırmağa çalışması, bunu suveren hüquq kimi təqdim etməsi onu deməyə əsas verir ki, Peter Stano da, ağası Borel də, onların təmsil olunduqları qurum da, bütövlükdə Qərb ölkələri də hayları silahlandırmağa çalışır, amma bunu gizlətmək üçün də bütün vasitələrə, yalana və diletantlığa da əl atır. Bununla hədsiz dərəcədə haqsızlıq və ədalətsizlik belə etməkdən çəkinmir. Çünki qonşu ölkənin torpaqlarını, 20 faizə yaxın ərazisini düz 30 ilə yaxın müddətdə, əsrin üçdə birinə yaxın dövrdə işğal altında saxlayan dövləti silahlandırmaq nəinki sülhə xidmət etmək, müşahidə missiyası kimi təmsil olunmaq, dəstək vermək deyil, ən böyük haqsızlığa rəvac vermək, ədalətsizlik etmək və bunu danmaqla da diletantlıq etmək deməkdir. Müharibədə, 44 günlük savaşda məğlub olduqları halda haylar əgər yenə də ərazi iddialarından əl çəkmirlərsə, Ermənistan Konstitusiyasında qondarma "miatsum", yəni, Qarabağın Ermənistana birləşdirilməsi ideyasının dəstəklənməsi davam edirsə, Ermənistanın silahlandırılmasına, işğalçı ölkəyə hərbi dəstək verilməsinə Aİ və yaxud həmin qurumun Peter Stano kimi bir diplomatı hansısa don geyindirməyə çalışırsa, bu, qəbuledilməzdir. Belə görünür ki, öz ədalətsiz, haqsız mövqeyi sayəsində sülhə qarşı baş verə biləcək hadisələrin məsuliyyətini Ermənistanı silahlandıranlar nəinki başa düşmürlər, yaxud başa düşmək istəmirlər, ümumiyyətlə, etdiklərini ört-basdır belə etməyə çalışırlar və bunun üçün də Stano kimiləri yalana əl atırlar, diletantlıq edirlər.

***İnam Hacıyev***

# “Ermənistan öz taleyini revanşçı qüvvələrə etibar edib”

Müsahibə



*“Ermənistanı sülhə doğru addım atmaqdan çəkindirən çoxlu amillər var". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.*

O bildirib ki, birinci növbədə Ermənistanın hələ də yaşadığı qisas və revanş hissləri bu ölkənin sağlam siyasət aparmasına böyük dərəcədə maneçilik törədir: "Ermənistanın siyasəti çox təəssüf ki, hələ də qisasçı qüvvələrin təsiri altındadır. Hətta Ermənistan kilsəsinin başçısı Ermənistan cəmiyyətinin revanş ruhunda tərbiyə olunmasında və formalaşmasında pis mənada əvəzsiz rolunu oynamaqdadır.

Ermənistanın siyasi dairələrinin içində revanş hissləri ilə yaşayanlar daha böyük çəkiyə malikdirlər, nəinki bölgənin və bu ölkənin gələcəyinə ayıq nəzərlərlə baxanlar. Bundan başqa Ermənistanın müstəqil siyasət yürütmək iradəsində olmaması da ölkəni sülh perspektivindən saxlayan növbəti amildir. Ermənistan müxtəlif dövlətlərin təsiri altındadır. Onun siyasətinə bu gün Kremldən də müəyyən cərəyanların təsiri var. Avropa mərkəzlərindən təsir göstərənlər var. Amerikadan Ermənistanın dövlət siyasətinə təsir və təzyiqlər var. Buna görə də xaricdən edilən bu təsirlər Ermənistanın sülh gündəminin müəyyən ardıcıllıqla davam etməsinə maneçilik törədir".

"Bir tərəfdən Ermənistanı sülhdən çəkindirən amillərin sırasında onun öz daxili siyasi hədəflərini məhz müharibə hazırlıqları üzərində qurması da rol oynayır. Ermənistan daxildə müharibəyə qisas niyyətləri ilə yaşadığını nümayiş etdirməklə bir növ ölkənin daxilində ictimai rəyi manipulyasiya edib. Ona görə ki, Ermənistanda müstəqil hakimiyyət olmadığına görə öz cəmiyyətlərini sülh üstündə kökləməyi bacarmırlar. Çünki Ermənistan müstəqillik əldə etdiyi dövrdən indiyə kimi ölkənin daxili siyasətini ancaq revanş, istilaçılıq üzərində kökləyib. Birdən-birə Ermənistan cəmiyyəti siyasi zövqlərini sülh üzərində kökləməkdə çətinlik çəkir. Sadəcə olaraq bacarmırlar. Ona görə də Ermənistan cəmiyyətinin baxışları üzərində oynamaq, Ermənistan cəmiyyətinin dəstəyini itirməmək üçün Ermənistan hakimiyyəti sülhə o qədər də meyl göstərə bilmir. Burada Ermənistan cəmiyyətinin özünün də müəyyən passivliyi rol oynayır. Əgər Ermənistan cəmiyyəti də ardıcıl, qəti şəkildə sülh iradəsində olsa, bu iradəsini Ermənistan hakimiyyətinə, müxtəlif təzyiq formaları ilə göstərə bilsə, Ermənistan hakimiyyətinin mövqeyi müəyyən qədər dəyişə bilər. Məsələ burasındadır ki, erməni cəmiyyətinin özü də bu gün sülh məsələsində o qədər də qətiyyətli mövqedə deyil, bu istiqamətdə fəallıq göstərə bilmir. Bir növ Ermənistan cəmiyyətinin taleyinə laqeydləşib. Öz taleyini revanşçı qüvvələrə etibar edib. Ermənistan cəmiyyəti öz taleyinə sahib olduğunu nümayiş etdirməyənə qədər Ermənistan sülh prosesindən beləcə çəkinməkdə davam edəcək" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# Ətin qiyməti qalxıb deyənlərə...

## FELYETON



Yüz ildir ki, tibb də, təbabət də deyir və təsdiq edir ki, ət insanı qocaldır. Çox təəssüf ki, biz də ət sevənik. Odur ki, nə tibbə, nə də təbabətə məhəl qoyuruq. Bildiyimiz biləyimizdəcə, öz yolumuzla gedirik, elə ki, əlimizə pul keçdi, ilk düşündüyümüz ət olur, ala bilsək də, bilməsək də. Hələ aramızda eləleri var ki, içində ət olmayan yeməyi yemir. Deyir ki, bundan yemək çıxmaz. Soruşanda da ki, nə üçün? Deyir ki, içində qırmızı şey olmayan yemək deyil.

Ölkəmizdə də nə qədər desən, toyuq, ət alverçisi var. Nə yaxşı da ki, var. Belə baxanda, onlar bizi özümüzdən çox istəyir. Sağlamlığımızın da qeydinə qalırlar, sağ olsunlar. Ətin, toyuğun qiymətini özləri istəməyərək, bizə xətir hərdən çox azca qaldırırlar ki, bəlkə pul tapıb ala bilməyək. Görürlər ki, yox, bu, camaata kar etmir. Elə yenə də əllərinə pul düşdümü, “ziyandır”,- bilmir, ət, toyuqdur ki, daşıyırlar. Belə olanda yenə bizə xətir qiyməti bircə damcı da qaldırırlar.

Bir də görürsən ki, camaat “bahadır”,-deyib ətə deyil, toyuğa meyl edir. Belə olanda bizi düşünənlər başlayır toyuğu broylerin gücləndirilmiş rejimdə istehsalına. Maşallah, elə işləyirlər ki, 3 günə 1-2 kiloqramlıq toyuq hazır olur, mağaza-marketlər də ağzınadək dolu olur. Al, ye...

Hərdən, sağ olsunlar, qırmızı ət xəstələrinə də yazıqları gəlir. Bunun üçün haralara üz tuturlar, Allah bilir. Bir də baxırsan ki, marketlər doldu şaqqa-şaqqa ətlərlə. Camaat əziyyət çəkib nə bu ətləri kəsəni, nə harada kəsildiyini görür.

Niyə də görməlidir ki? Yox, hələ iş-gücünü burax, bununla da maraqlan. Sənin ki, bu qayğını çəkənlər var, sağ olsunlar, gedib danışır, kəsdirib gətirir, doğrayıb yığırlar ora, sən də rahat al, ye də.

Ancaq çox təəssüf ki, bizim bu camaat sən deyən qədirbilən deyil ha... Yazıq alverçilər gedib o qədər əziyyət çəkib gətirib sizə su qiymətinə ət, toyuq verməyəcək ki. Elə hey eşidirsən ki, camaat narazıdır. Nədən? Qiymətlərdən. Deyirlər ki, ətlə toyuğun qiyməti hər gün qalxır.

Harada qalxdı axı? Cəmi-cümlətanı son bir ayda erkək dana ətinin bir kiloqramının pərakəndə satış qiyməti 14-14,5 manatdan 15,5-16 manata, quzu ətinin bir kiloqramının qiyməti 17-18 manatdan 19-20 manata, toyuq ətinin qiyməti isə 5-5,9 manatdan 6-6,3 manata qədər yüksəlib də. Niyə bu nə qədər artımdır ki, dilə alıb danışırsınız.

Hələ bu azmış kimi, toyuq yetişdirəni, ət gətirəni və satanı möhtəkir də adlandırırsınız. Əşi, bu insanlar sizi düşünür axı. Azacıq artım da hərdən ona görə olur ki, sizlər arada kartof, lobya, badımcan, əriştə, yarma, vermişel də yeyəsiniz. Yoxsa, nə qədər toyuq, ət yemək olar. Camaat sizdən yana narahatdır ki, qocalmayasınız, həmişə gənclik təravəti üzünüzdə olsun, vaxtından əvvəl üz-gözünüz, əlləriniz qırışmasın, siz də sizi düşünənlərin adını möhtəkir qoyur, bu cüzi artımlar üçün səhərdən axşama deyinirsiniz.

Vallah, xətriniz qalsa da, deyəcəyəm, qədirbilən deyilsiniz. Sizi düşünənlərin qədrini bilmədikcə, Allah sizə heç pul da yetirməyəcək ki, ət alıb yeyə biləsiniz. Bir gün o möhtəkir adlandırdıqlarınız sizdən elə inciyəcək ki, qiyməti qaldırıb qoyacaq ceyranın belinə, onda marketlərdə ətə yalnız şüşənin arxasından baxa-baxa qalacaqsınız... Onda ağlınız başınıza gələcək.

**Mətanət Məmmədova**



**Elçin Bayramlı**

# Ünvansız sosial yardım, yoxsa uşaqpulu?

## TƏKLİF

Yoxsulluğun aradan qaldırılması üçün bütün dövlətlərdə sosial yardım formaları, proqramları var. Azərbaycanda da bir neçə sosial yardım proqramı tətbiq olunur. Onlardan ən məşhuru ünvanlı sosial yardımdır. Bu proqram hər bir vətəndaşa ən azı müəyyənləşdirilmiş yaşayış minimumu həddində vəsaitin dövlət tərəfindən kompensasiya edilməsini ehtiva edir. Lakin burada kriteriyalar, seçmələr, yanaşmalar o qədər mürəkkəb, bürokratikdir ki, bəzən həqiqi ehtiyacı olan ailələr qalır kənarda, təminatı yüksək olan ailələrdən bəziləri sosial müavinətlər alırlar. Buna görə də bir çoxları bunu ünvansız sosial yardım adlandırır.

Bununla bağlı çox saylı rəsmi faktlar da açıqlanıb, bir çox belə əməllər ifşa olunub. Bu, şəffaf və obyektiv bir sistem kimi özünü doğrultmadı. Birincisi, burada elə tələblər var ki, bir çox ailələr bu yardımı ala bilmir. Məsələn, çoxuşaqlı, yoxsul bir ailənin çox köhnə bir maşını var və bunun bazar dəyəri 500 manat da deyil. Bu maşından istifadə edərək kənddə nəsə daşıyır, 5-10 manat pul qazanmağa çalışır. Bunu bəhanə edərək, bu ailəyə sosial yardım vermirlər. Və yaxud, evində müəyyən avadanlıqlar var, həyətində bir neçə toyuq-cücə var və yaxud, çöldə bir az torpağı var, orada ya suvarma problemi var, ya digər problemlər var ki, heç ondan istifadə edib gəlir də əldə edə bilməz.

Daha bir absurd tələb. Təsəvvür edin ki, bir şəxsin yaşlı və xəstə qonşusu var. Həmin qonşu öz maşını üçün bu adama sürücülük etibarnaməsi verib ki, əgər qəfil halı pisləşsə, qonşu onu həkimə çatdıra bilsin. Belə bir halda bu şəxs yoxsul olsa da, haqqı çatdığı halda ünvanlı sosial yardım ala bilmir, çünki onun adına zəruri hallarda qonşunun maşınını idarə edə bilmək üçün etibarnamə verilib.

Beləliklə bəzi hallarda həqiqi haqqı çatan ailələrə yardım verilmir, amma rüşvətlə, tanışlıqla və s. formalarda bu yardımdan bəhrələnən imkanlı ailələr var. Ətrafımızda və sosial şəbəkələrdə davamlı olaraq çox ağır yoxsulluq vəziyyətində olan insanları görürük və cəmiyyətdən yardım xahiş edirlər. Eyni zamanda bu şəxslərin ev şəraitindən, yaşayış vəziyyətindən açıq məlum olur ki, yoxsulluq həddindən də aşağıdadır. Belə bir halda, hansı əsasla onlara ünvanlı sosial yardım verilmir ki, bu insanlar dilənməyə məcbur olur, insanlardan yardım istəyir? Bunun harası ünvanlı yardım oldu?

Yəni əgər adambaşına 270 manat yaşayış minumumudursa, o halda 4 nəfərlik ailə üçün bu 1080 manat, 5 nəfərlik ailə üçün 1330 manat təşkil edir. İndi baxaq görək- ölkədəki bütün 4-5 nəfərlik ailələrə ayda 1000-1300 manat vəsait daxil olurmu? Əlbəttə ki, xeyr.Bu halda sosial yardımların hansı effektindən danışmaq olar?

Əgər ünvanlı sosial yardımda uzun illərdir ki bu nöqsanları düzəldə bilmirlərsə, sui-istifadə hallarının qarşısını da almaq olmursa, onda praktik effekt verən başqa sistemlərdən istifadə etmək lazımdır.

Uzun illərdir ki, ictimai xadimlər tərəfindən təklif olunur ki, Azərbaycanda uşaq pulu verilsin, hətta qeyd olunur ki, ünvanlı sosial yardım ləğv edilərək uşaqpulu formasında verilməsi daha effektiv olardı. Çünki uşaqpulunda hər hansı bir bürokratik əngəllər, rüşvət, korrupsiya amili olmayacaq, bu halda ailələrdə uşaqların dəqiq sayı konkret məlumdur, hər uşağa veriləcək məbləğ məlumdur. Konkret olaraq, bir ailənin 3 uşağı varsa, məsələn, hər uşağa dövlət 200 manat nəzərdə tutursa, bu ailə 600 manat alacaq. Hər hansı bir məmur bunu nə dayandıra bilər, nə də ki bu məbləği başqa cür aşağı-yuxarı yaza bilər.

Uşaqpulu aztəminatlı ailələri vəziyyətdən çıxardır, uşaqların sağlam şəkildə böyüdülməsini təmin edir və yoxsulluğu aradan qaldırır. Çox təəssüf ki, bizdə bu təkliflər uzun illərdir ortaya qoyulsa da uşaq pulu nə bərpa olunur, nə onunla bağlı bir addım atılır.

Yalnız bu kimi məsələlər kompleks şəkildə baxılsa, əhalinin yoxsul təbəqələrinin ümumi sayı, vəziyyəti, gəlir səviyyəsi hesablanıb nəzərə alınsa, bu problem həll oluna bilər. Bu formalarda dövlət balanslı şəkildə insanların minimum ehtiyaclarını tələb olunacağı qədər vəsaiti hər hansı bir formada çatdırmalıdır. Ancaq bu günkü proqramlarda məmur amili önə çıxır ki, burada yayındırıcı, çaşdırıcı məqamlar var, müxtəlif bəhanələrlə istəyəndə verirlər, istəyəndə vermirlər. Bu artıq korrupsiya elementlərini yaradır.

Ona görə daha effektiv, daha şəffaf sistemlər yaradılmalıdır ki, sosial təminatlar, sosial proqramlar öz həqiqi məqsədinə çatsın. Yəni, sosial ədalətin bərpa olunması, insanların heç olmasa, minimum ehtiyaclarının təmin olunması dövlətin ən ali məqsədidir. Onu təmin etmək üçün isə yenidən bu sahədə islahatlar aparılmalıdır.

***Cənubi Qafqazda üç ölkə var – Azərbaycan, Gürcüstan və Ermənistan. Və bu üçlük üç imperiya dövrünü yaşamış ölkələrlə əhatə olunub. Hər birinin öz maraqları var, irinin iri, kiçiyin kiçik. Qeyri-regional dövlətlərin müdaxiləri də mütəmadi xarakter alıb. Onlar da çalışırlar ki, qlobal maraqlarını tımin etsinlər, təsir dairələrini genişləndirsinlər. Regiona maraqlar çoxaldıqca bəzi problemlərin həlli də çətinləşir.***




# “Kiçik şahmat taxtası”

## Çoxqütblü dünya Cənubi Qafqazı azad və dinc regiona çevirə bilərmi?







Bəzən balanslaşdırılmış siyasi addımlar da çətinliklə atılır. Güclü Azərbaycan öz iradəsini ortaya qoyanda, gücsüz Ermənistan regiondan kənar qüvvələri dövrəyə gətirmək istəyir, birinin qucağındaykən digərlərinin qoynunda özünə yer düzəltməyə çalışır. Bu da regionda yeni qarşıdurmalar yaradır. Gürcüstan bu təcrübəni sınaqdan çıxarmaq istəsə də arzusu daşa dəyib, yenidən köhnə “sevgilisinə” qayıtmaq qərarına gəlib.

Cənubi Qafqazı “kiçik şahmat taxtası” da adlandırmaq olar. Region əsaslı siyasi, iqtisadi və geosiyasi sarsıntılardan keçir. Bir çox Qərb mərkəzləri və onların Gürcüstandakı apoloqları Ermənistanın Rusiyadan “dönüşünü”, xarici siyasətə çoxqütblü yanaşmanın inkişafı yolu ilə geosiyasi problemlərini həll etmək cəhdlərini məmnuniyyətlə qeyd edirlər. İyirmi ildir ki, Moskvanın qonşusunu hərbi və iqtisadi müdafiə etməli olduğuna özünü inandıran İrəvan birdən-birə məğlub və alçaldılmış vəziyyətdə qaldı. Əslində, öz taktiki yanlış hesablamalarının əksəriyyətində şimal strateji tərəfdaşını günahkar etməklə, erməni siyasi elitası “Qızılgül inqilabı”na başlayan Gürcüstanın yolu ilə getdi. O, bir tərəfdən iqtisadi baxımdan Moskva ilə flört edir, digər tərəfdən isə Qərbə ölkəni əhəmiyyətli siyasi və ideoloji təsirə açacağına söz verir. Tiflis üçün belə bir dastanın necə başa çatdığı hər kəsə aydındır - dövlət nə NATO-ya, nə də Aİ-yə üzv olmadı, Rusiya ilə vuruşdu və əlavə əraziləri itirdi və təbii ki, heç bir “vanil dağlar”a və ya sosial-iqtisadi cənnətə sahib ola bilmədi.

Ona görə də yaxşı olardı ki, Ermənistanda olanlar Rusiya ilə nəinki qardaşlıq münasibətlərindən danışsınlar, həm də faciəvi hadisələrdən və bu hadisələrin Gürcüstan cəmiyyətinə təsirindən qaçmaq üçün qonşu ölkənin yaxın tarixini fəal şəkildə öyrənsinlər. Müharibənin travmalarından hələ də özünə gələ bilməyən cəmiyyət “tunelin sonundakı işığa” (Qərb institutlarına giriş məhz belə təqdim olunurdu) ümidini qismən itirib və indi ağrılı hadisələri nəzərə almağa məcburdur. geosiyasi və qlobal proseslər. Sanki bir qapalı “Rusiya bizə kömək edəcək” paradiqmasından Ermənistan indi özünü gürcülərin tapdaladığı “Qərb bizə kömək edəcək” formulunda tapır. Amma nə Ermənistana, nə Gürcüstana Qərb, Rusiya, Çin, yaxud başqa fövqəldövlət kömək etməyəcək, çünki onların vətəndaşları və “özəlləşdirilmiş” cəmiyyət institutları, elitaları, çox vaxt cəmiyyətdən çox öz siyasi, maliyyə və ideoloji maraqlarına xidmət edən qurumlar və elitalar dövlətlərinə kömək etmirlər.

Səhv etməyin, siyasətin və beynəlxalq münasibətlərin əsasları dəyişməyib, sevgi və qardaşlıq, dəyər və fədakarlıq haqqında gözəl çıxışlar və bəyanatlar arxasında hər kəs öz şər niyyətinə görə deyil, öz mənafeyini və xalqın sosial-iqtisadi rifahını qorumaq prinsipi əsasında maksimum fayda və fayda əldə etməyə çalışır. Buna görə də, Cənubi Qafqaz “kiçik şahmat taxtası” kimi həmişə daha əhəmiyyətli oyunçular üçün lakmus sınağı olub, region belə olaraq qalır və yerli qüvvələr bunu dərk etməsələr və az-çox məqbul reallığı bərqərar etməyə çalışsalar, parçalanacaqlar. Gürcü elitası və cəmiyyətin əksər hissəsi bunu başa düşmək üçün çox vaxt itirdi və indi Ermənistanda da eyni proses gedir. Azərbaycan Prezidenti İlham Əliyev tarixi və siyasi müstəvidə baş verənlərdən xəbərdar, məlumatlı dövlət xadimi, xalqının lideri kimi bunu çox gözəl anlayır. “Kiçik şahmat taxtası”ndakı digər ölkələrin maraqları o zaman qorunacaq ki, onların nümayəndələri öz ideoloji arzu və maraqlarına deyil, oyun qaydalarını anlamağa və cəmiyyətə xidmət etməyə başlasınlar.

Gürcüstan cəmiyyətinin və elitasının nisbətən kiçik bir hissəsinin nəhayət reallaşmamış əsas arzusu radikal qərbpərəstlik ideyalarının, yəni Qərbin, xüsusən də ABŞ-ın total hegemonluğunun təbliği, o cümlədən NATO/Aİ-nin Qərbə inteqrasiyasının gedən qatarına hansısa yolla tullamaq prinsiplərinə uyğun olaraq hansısa “tarixin sonu”na nail olmaq istəyidir. Elə həmin adamlar Cənubi Qafqazda rus hegemonluğunun sona çatmasından təəssümlə danışırlar, unudurlar ki, bu, təkcə Rusiyanın regiondakı hegemonluğunun sonu deyil, ümumilikdə – bütövlükdə hegemonluq dövrünün sonudur. Beynəlxalq siyasət və qlobal proseslər qlobal və regional dominantlıq dövrünə qədəm qoyub ki, bu zaman tərəflərdən heç birinin hegemonluq statusu əldə etməyə gücü çatmır, həm də hamının razılığı yoxdur. Hegemonluq anlayışı iki prinsipə əsaslanır - total dominantlıq və oyunçuların əksəriyyətinin bu total hökmranlığa razılığı. Dünya əhalisinin əksəriyyəti Qərbin, xüsusən də ABŞ-ın hərbi-iqtisadi potensialını dərk etməklə yanaşı, ümumi maraqlara əsaslanaraq onunla razılaşıb. Əslində, sistem hər kəsə faydalar - bir növ “Roma sülhü” almağa imkan verib.

İndi Qərb birtərəfli qaydada dünyaya rəhbərlik edə bilmir. Üstəlik, artıq bununla bağlı tələb də yoxdur. Çin, Hindistan və ərəb sivilizasiyası kimi təkcə Qərbin deyil, həm də rus düşüncəsinin yeni təsir mərkəzləri və alternativləri meydana çıxıb. Hazırda Cənubi Qafqazda Türkiyə və Rusiyanın hökmranlığı, Qərbin hegemonluq əvəzinə qlobal hökmranlığını qoruyub saxlamaq cəhdləri, Çin və Hindistanın gec-tez güc balansını tamamilə dəyişəcəyi istəkləri var. Ərəb dövlətləri bütövlükdə yeni sivilizasiya modeli təklif edə biləcək son azadlığın və özünü kəşfin müəyyən tumurcuqlarını göstərir. Çoxqütblük qlobal siyasəti daha riskli və münaqişəli edir, lakin eyni zamanda, getdikcə artan əhali sayına Qərbin inkişaf modelinin “qaçılmazlığından” və ya kommunizmə qarşı kapitalizm kimi Qərb fəlsəfəsinin artıq keçmiş qarşıdurmasından xilas olmağa imkan verir.

Ümumiləşdirsək, “kiçik şahmat taxtası” dövlətləri suveren təfəkkürün formalaşmasını başa çatdırmalı və hegemonluq dövrünün sonundan istifadə etməlidirlər. Çoxqütblülük ciddi alternativlər təqdim edir ki, bunlardan düzgün istifadə edilərsə, Azərbaycan, Ermənistan və Gürcüstana nəhayət, sakit və işğalın “qaçılmazlığından” azad olan region qurmağa imkan verə bilərlər.

### Birini sındırdı, birini itirdi

Ermənistanın baş naziri Nikol Paşinyanın KTMT-ni boykot etməsi, görünür, Moskvanın zövqünə uyğun deyil. Minsk bəzən kifayət qədər kəskin reaksiya verir. Amma müdafiə blokunun digər üzvləri - Qazaxıstan, Qırğızıstan və Tacikistandan erməni tərəfinə qarşı heç bir şikayət yoxdur. Niyə? Paşinyan Lukaşenko ilə mübahisə etdi. Baş nazir açıq şəkildə bildirdi ki, Lukaşenko nə qədər ki, Belarusda hökmranlıq edəcək Minskə ayaq basmayacaq. Bu baxımdan Aleksandr Lukaşenkonu təbrik etmək olar. Amma Qazaxıstan lideri Kasım-Jomart Tokayev Paşinyanla çox isti münasibətlər saxlayır. Hətta İrəvana dövlət səfəri də edib. Astana dəfələrlə Paşinyana Bakı ilə barışıq məsələsində vasitəçilik xidmətlərini təklif edib, lakin KTMT-nin işini boykot etmək üçün heç bir iddia irəli sürmür.

Bütün bunların fonunda Qazaxıstanın cənubunda, Türküstan bölgəsində keçirilən “Sərhədsiz Qardaşlıq-III” təlimlərini qeyd etməmək mümkün deyil. Qazaxıstan Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, manevrlərin aktiv mərhələsində altı ölkənin xüsusi təyinatlı bölmələri quldur dəstəsini “məhv edib”. Bu “əməliyyat”da Qazaxıstan, Azərbaycan, Qətər, Pakistan, Türkiyə və Özbəkistandan olan döyüşçülər iştirak edib. Yəni burada KTMT-nin iyi də gəlmir. Bundan əlavə, bu il iyulun 3-də Astanada keçirilən ŞƏT sammiti zamanı üç dövlətin başçısı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistanın baş naziri Şahbaz Şərif və Azərbaycan Prezidenti İlham Əliyev arasında qapalı görüş keçirilib. Ertəsi gün üç ölkənin xarici işlər nazirlikləri danışıqların təfərrüatlarını özündə əks etdirən birgə bəyanat yayıb. Türkiyə-Azərbaycan-Pakistan üçbucağındakı münasibətlərlə yanaşı, Ərdoğan, Əliyev və Şərif “Qəzza, Kipr, Kəşmir, İslamofobiya kimi regional və qlobal problemləri” müzakirə ediblər.

Görünən odur ki, Ankara, Bakı və İslamabad ittifaqı nəhayət yaranıb. Bəzi mərkəzlər bunun Hindistan və İrana qarşı yönəldiyini iddia edirlər. Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasından və Ermənistandakı hərbi mövcudluğun azaldılmasından sonra hərbi baxımdan Bakı, Ankara və İslamabad Rusiyaya Cənubi Qafqaz və Orta Asiyadakı planlarına maneə kimi baxmır. KTMT-nin Mərkəzi Asiya üzvlərinə - Qazaxıstan və Qırğızıstana (Tacikistanın mövqeyi xüsusilə qeyri-müəyyəndir) gəlincə, onlar üçün Cənubui Qafqazda qüvvələr balansının dəyişməsi üfüqləri dəyişir.

Qazaxıstan cənubda Rusiyadan yan keçərək “Orta Dəhliz”in bir hissəsinə çevrilməli olan “Zəngəzur dəhlizi”nin açılışını gözləyir. Gürcüstan Çinin də maraqlı olduğu həmin logistik layihədə fəal iştirak edir. Tbilisidə başa düşürlər ki, Rusiyanın Ermənistanda mövqelərinin zəifləməsi Orta Asiyanın türk dövlətlərinin Xəzər dənizi və Azərbaycan vasitəsilə Ermənistanın cənubunda Türkiyə ilə dəhliz boyunca birləşəcək və bu da Gürcüstanın monopoliya mövqeyini tamamilə neytrallaşdıracaq.

**V.VƏLİYEV**

RAKURS





# Qoy ahıllıq ömrün hamar yolu olsun...

***Ömür suya bənzər. Axar, gedər. Yolu hamar, maneəsiz olanda, su öz yatağından on illərlə həzin-həzin, sakit-sakit axıb getdiyi kimi, insan ömrü də belədir, yolunu tapdısa, bu yolda keşməkeşlərlə rastlaşmadısa, ötər, gedər: sakit-sakit, həzin-həzin. Və yaxud, su axarkən qarşıdakı maneə onu ətrafa dağıtdığı, daşa, qayaya çırpdığı kimi, ömür yolunun da keçilməzliyi onu bəzən yarıda qoyur, nakam insan taleyinə çevirir.***

Elə bu cəhətlərdən də su yolu ilə insan ömrünü bir-birinə oxşadırıq. Maneələrlə rastlaşan su yolunun "ömrü" qədər qısa da, özünə yol tapan su yolu qədər uzunömürlü də olur insan ömrü.

İkinci kimi olanda insan ömrünün ahıllıq çağına çata bilir. O çağ ki, ömrün ən hamar, ipək çağıdır. İnsanın həyatın hər üzünü görüb, onun keşməkeşlərindən döyüşə-döyüşə, qələbə ilə çıxıb, mənasını tamamilə anladığı bir yoldur ahıllıq... Bu yol dünənin gənc oğlanının baba, gənc qızının nənə dövrüdür. Hələ nəticələr, kötücələr də var bu yolda. Bu dövr ipək nənələrin nağıl dövrüdür. Ağsaqqal, pirani babaların nəvə-nəticə ilə vaxt keçirmək, onlarla birlikdə bağbostanda çalışmaq, park-xiyabanlarda gəzmək, balacaların saysız sualını cavablandırmaq, dünyanın gərdişini nəvələrə öyrətmək dövrüdür.

### Ahıllıq həm də sınaq dövrüdür

Ahıllıq həm də həyatın ən kövrək anıdır. Nədənsə insan yaşlananda, kövrək olur. Qəlbinə hər şey tez toxunur. Elə buna görə də ahıllıq eyni zamanda bir sınaq dövrüdür. Xeyr, ahılların deyil, övladlarının sınaq dövrüdür. Ahıllıq çağı övladları sınayır. Kim valideyninə sahib çıxır, həyatını bəxş etdiyi, zəhmət çəkərək böyüdüb ərsəyə çatdırdığı, yuxusuz gecələrini verdiyi övladların hansı valideyninin ahıllıq çağının sahibidir, bax bunu məhz həmin dövr göstərir.

İnsan yaşlandıqca, bir evin işığına, nuruna çevrilir. Lakin bu nurun da qayğıya ehtiyacı olur. Övladlar onu, necə deyərlər, ovcunun içərisində saxladıqca, onlar bu qayğını gördükcə, ömürlərinin yeni baharlarını yaşayırmış kimi sanırlar özlərini. Ailəyə işıq saçırlar. Hər kəsi başlarına toplayır, bir evə ağsaqqallıq, ağbirçəklik edirlər. Böyük olan yerdə Allah vardır, deyiminə əsasən belə evlərdə bar-bərəkət də olur. Böyüyün, kiçiyin yeri bilinir. Hər iş öz nizamı, axarı ilə gedir.

Lakin övladlar da var ki, valideyni qocaldıqca, artıq ona yük kimi gəlir. Axı onlar əvvəlki kimi işləmir, qazanc gətirmir, ev, həyət-baca işlərində əvvəlki qədər onlara





kömək göstərə bilmirlər. Bu səbəbdən də belə övladlar öz ahıl valideynlərinə sahib çıxmır, onları tək qoyur, ayrı yaşamağı seçir, əksər halda isə ahıllar evinə yola salırlar.

Uzun illər yaşadığım Şahbuz rayonunda da belə bir ahıllar evi var idi. Tez-tez yolumu oradan salır, buradakı ahıllarla söhbətləşirdim. Hər biri Azərbaycanın bir bölgəsindən idi onların. Kiminin heç kəsi yox idi, ona görə ahıllar evinə pənah gətirmişdi. Kimi isə övladı tərəfindən atılmış, bu səbəbdən dövlətin himayəsinə sığınmaq məcburiyyətində qalmışdı. Onlarla söhbət etdikcə, üzlərindəki illərin açdığı qırışlardan və xüsusilə də əllərindən-zəhmətin bütün çalarları çökmüş əllərindən, bir də yollara dikilən gözlərindən gözümü çəkə bilmirdim. Axı bu əllər bir zamanlar övlad başı sığallamışdı, onun hər bir qayğısının zəhmətini çəkmişdi. Axı bu gözlər gecə səhərədək beşik başında yuxuya həsrət qalmışdı. Axı üzlərdəki bu qırışların hər biri ötən illərin qayğılarının inikası idi...

### Bəs haradadır övladlar?..

Ahıllar evindəki ahılları hə zaman pəncərə önündə görmək olurdu. Onlar sanki bu pəncərələrdə kiminsə yolunu gözləyirdi. Gözləri daim yol çəkirdi. Yəqin vicdanı nə vaxtsa narahat olacaq övladlarını gözləyirdilər.

Lakin onlar gəlmək bilmirdi. Başları harada qarışmışdı, nə işlə məşğul idilərsə, yadlarına ata-anaları əsla düşmürdü. Ahıllar vardı ki, bir dəfə də onlarla maraqlanan olmurdu. Bəzən uzaq qohumlardan onları görməyə gələn olurdu, lakin öz övladlarından səs-səmir gəlmirdi...

Odur ki, pəncərə önündə gözləri yolda qalırdı onların... Ahılları belə görəndə adamın ürəyi parça-parça olurdu. Bir anlığa həmin övladları axtarmaq, tapmaq və belə bir sual verməyə istəyirdim: haradasınız? Nə üçün bircə dəfə də olsun, yadınıza ata-ananız düşmür. Məgər onları unutmaq belə asandımı?

Və hər dəfə düşünürdüm ki, belə övladlar həyatda xoşbəxt ola bilməz. Bir evin çırağı olan ata-anasını ahıllar evinə atan, ondan illərlə xəbər almayan övladın evində işıq yana bilməz. Çünki evlərimizin işığı da, nuru da valideynlərimizdir. Onlar yaşlaşdıqca, bu nur daha da artır. Onun şöləsi ətrafa daha da çox yayılır. Hər kəs bu işığa gəlir. Övladlar, sonra nəvələr, daha sonra nəticələr, kötücələr və



sair...

Bəs o işıq yoxdursa, o evdə necə yaşamaq olar? Bu nur həm işıq, həm də istilikdir. Bir evdə ki, istilik yoxdur, orada rahatlıq olarmı?

### Onlar heç kimə yük deyillər...

Onlar yaşlaşdıqca, xəstələnə, sağlamlıq imkanlarını itirə bilirlər. Bundan xoflanan, valideyninin ona yük olacağını fikirləşən övladlar olur. Lakin dərindən düşünəndə, onlar əsla yük deyillər. Bu, həyatın gedişatıdır. Dünən sən onların qolları üstündə idin, bu gün onlar sənin nəvazişində olmalıdır. Və sabah da sən bu gün qayğısını çəkdiklərindən qayğı görmək istəyəcəksən. Bax, budur həyat.

Lap belə deyək, dünənədək sən onlara necə yük ola bilirdinsə, onlar da sənin yükün ola bilərlər. Bu yükü çəkmək isə sənin borcundur, övlad. Bu yük yuxusuz gecələrdən, ağzının ən şirin tikəsini sənin ağzına qoymaqdan, səhərdən axşamadək çalışıb sənin istəklərini yerinə yetirməkdən, bir qarın ac, bir qarın tox yalnız sənin qarnının tox olmasını düşünməkdən, min bir çətinliklə sənə təhsil verməkdən, toy etməkdən ağır ola bilməz. Odur ki, et ki, sənə də sabah edən olsun.

Onlar heç kimə yük deyillər. Sağlamlıq imkanları, fiziki gücləri azalsa da, maddi vəziyyətləri yerindədir. Çünki dövlətdən məvacib-pensiya alırlar. Bəzən bu pensiyanın dörddə biri onların özlərinə sərf olunmur. Övladlar var ki, öz ailəsinin qayğılarını bu vəsaitlə qarşılayır. Və bu vəsaitin sahibinə isə yeri gələndə səsini qaldırır.

Övladlar var ki, məhz bu pensiyaya görə valideynlərinin yanında qalır. Yoxsa, onları çoxdan tərk etmiş olardı. Gündəlik siqareti də onların pensiyası ilə alır. Lakin ahıl ata-ananın ürəyi alma istəyir, onlara aylarla bu meyvədən bir kiloqram alan oğul-qız olmur.

Onlar isə susurlar. Bu qayğısızlığa səslərini belə çıxarmırlar. Sanki nədənsə qorxur, susurlar. Bəlkə də evdə söz-söhbət yaranmaması üçün susurlar. Bəlkə də atılmış valideynlər gözləri önünə gəlir, buna görə susurlar. Yaşdaşlarının başına gələnlər gözlərini qorxudur ahılların. Axı onların əvvəlki tək gücü, necə deyərlər "əli-ayağı" yoxdur. Onların qayğıya ehtiyacı var. Məhz bu qayğı kəsir qarşılarını. Bəzi övladlar nə sitəm etsə də, ahıllarımız susur, buna dözürlər.

Ahıllarla övladları aradında bircə qalır vicdan. Vicdan varsa, övlad insanlıqdan öz nəsibini almışsa, valideyninin ahıl çağında ona sahib çıxır. Ona özünə göstərilən qayğını göstərir. Yox, əgər vəziyyət əksinədirsə, yuxarıda dediyim kimi, ata-analarımız ahıl çağında həyatın məşəqqətləri ilə qarşılaşır. Lakin susur, susurlar...

### Dövlətimizin ahıl vətəndaşları

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar. 2023-cü ilin əvvəlinin statistikasına görə, Azərbaycanda ahıl vətəndaşların sayı 460 minə yaxındır.

Ümummilli Lider Heydər Əliyev tərəfindən ahıl insanlara, onların sosial müdafiəsinə daim xüsusi diqqət və qayğı göstərilib. Bunun nəticəsi kimi, hələ 1993-cü ildən ölkəmizdə də hər il Beynəlxalq Ahıllar Günü yüksək səviyyədə qeyd olunmaqla, bu kateqoriyadan olan vətəndaşların təminatlarının artırılması üçün ardıcıl işlər aparılıb.

Ötən 20 ildən artıq dövrdə isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət ahıl insanlarımızın etibarlı sosial müdafiəsinə yönələn tədbirlərin ildən-ilə daha da genişlənməsinə imkan verib. Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlar, "Azərbaycanda demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı", "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" və digər sənədlər nəticəsində ahıllara dövlət qayğısının artırılması sahəsində mühüm addımlar atılıb.

Dövlətimiz hər bir vətəndaşı kimi, ahılların da sahibidir. Onların rifah halı üçün nə lazımdırsa, edib və etməkdədir.

* * *

Evlərimizdən isə qoy ağsaqqal, ağbirçəklərimiz əskik olmasın. Hər zaman onların işığı, nuru yollumuza aydınlıq gətirin, xeyir-duası həyatımızı istiqamətləndirsin. Onlar bizim dəyərlilərimizdir. Gəlin bu dəyərin dəyərini verə bilək. Çünki bu, həm də bizim borcumuz. Qoy ahıllıq ömrün hamar yolu olsun. Bu yolda yaşıötmüşlər problemsiz addımlasınlar.

Bayramınız mübarək, əziz ahıllar. Siz evlərimiz kimi, həyatın da yaraşığısınız.

***Mətanət Məmmədova***

# “Human Rights Watch” və “Freedom House” Avropa siyasi dairələrinin əlaltısı kimi çıxış edirlər




Azərbaycanın gücünə növbəti güc qatan 44 günlük Vətən Müharibəsindən sonra bəzi xarici ölkələr, eləcə də beynəlxalq təşkilatların nümayəndələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bununla hesab edirlər ki, erməni terrorunun ləvğ edilməsinin qarşısını alacaq, Ermənistanda baş qaldıran revanşist əhval-ruhiyyəsinin çiçəklənməsinə yardımçı ola biləcəklər. Yeni 44 günlük Vətən Müharibəsində və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirlərindən sonra Cənubu Qafqazda yarana biləcək sülhün və təhlükəsizliyin əngəllənməsinə nail olacaqlar. Bu səbəbdən də ardıcıl olaraq Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, qərəzli hesabatlar yayırlar. Fransa, Yunanıstan, Niderland, ABŞ, Hindistan kimi dövlətlər Ermənistana silah-sursatla yardımçı olmağa çalışırlarsa, “Human Rights Watch”, “Freedom House”, “Amnesty International” və digər ermənipərəst dairələr tərəfindən maliyyələşən təşkilatlar isə şər və böhtana əsaslanan hesabatlarla dəstək göstərməyə çalışırlar. Xəbis niyyətləri ilə düşünürlər ki, bu yolla Azərbaycanı haqq yolundan döndərməyi bacaracaq və Ermənistanda hökm sürən ruh düşkünlüyünü aradan qaldıra biləcəklər. Ancaq anlamırlar ki, Azərbaycan böyük gücə və qüdrətə malik dövlətdir, onu haqq yolundan heç bir qüvvə döndərə, çəkindirə bilməz. Görünən isə ondan ibarətdir ki, məkrli dairələr reallıq hissindən tamamilə məhrum olublar. “Human Rights Watch”, “Freedom House”, “Amnesty International” qondarma təşkilatlar daim Azərbaycana qarşı qərəzli hesabatlarla çıxış edirlər. Sözügedən üzdəniraq təşkilatlar bu günlər yaydıqları hesabatda absurd iddialarla çıxış ediblər. Yaydıqları cızma-qarada iddia edirlər ki, guya Azərbaycanda “insan hüquqları pozulur”, “mətbuat azad deyil”, “siyasi məhbus”lar mövcuddur. Halbuki bu kimi iddiaların hamısı yalan üzərində qurulub və heç bir fakta söykənmir. Bütün bu kimi şər və böhtanların yayılmasının kökündə ermənipərəst maraqlar dayanır. Digər tərəfdən Azərbaycanda COP29 konfransının keçirilməsi qaragüruh ermənipərəst dairələri ciddi narahat edir. Qərbi Azərbaycan İcmasının da yaydığı bəyanatda sözügedən təşkilatların qərəzli hesabatını haqlı şəkildə qınayıb. Bəyanatda bildirilir ki, COP29 yaxınlaşdıqca məlum anti-Azərbaycan qüvvələr, ”insan hüquqları” bəhanəsi ilə Azərbaycana qarşı hücumlarını intensivləşdiriblər: “Erməni lobbisi ilə sıx əlaqəli olan Freedom House, Human Rights Watch və




digərləri əvvəllər ermənipərəst motivlərini gizlətməyə çalışırdılarsa da, artıq bunu açıq şəkildə edirlər. Artıq bu hücumları həmin təşkilatların erməni mənşəli əməkdaşlarının özləri həyata keçirir. Eyni zamanda, bu təşkilatlar irqçi düşüncəyə malik digər erməni aktivistlərin bütün hücumlarını dəstəkləyirlər. Buna son nümunə isə Freedom House-un erməni millətçisi Şeyla Paylan tərəfindən Newsweek-də yayımlanan böhtan dolu məqaləni dəstəkləməsidir.Biz bu hücumları qətiyyətlə pisləyir və Paylanın işlədiyi BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsini (UNODC) onun haqqında zəruri ölçü götürməyə çağırırıq”.

## Avropada nasizm təhlükəli xarakter alır

Xatırlatmaq yerinə düşərdi ki, həmin bu ermənipərəst beynəlxalq təşkilatlar Azərbaycanda keçirmiş birinci Avropa oyunları ərəfəsi də hay-küylü qarayaxma kampaniyası ilə çıxış etmişdilər. Ondan əvvəl, yeni 2012-ci ildə ”Eurovision” mahnı müsabiqəsi ərəfəsində də ölkəmizi özlərinin dayaz ağılı ilə gözdən salmağa cəhdlər göstərmiş, boş və mənasız açıqlamalarla, hesabatlarla çıxış etmişdilər. Artıq bütün dünyada tam əminlik yaranıb ki, “Human Rights Watch”, “Freedom House”, “Amnesty International” kimi təşkilat haqqında belə bir qəti fikir formalaşıb və təsdiq olunub ki, sözügedən təşkilatlar islamofobiya xəstəliyinə yoluxmuş və insan hüquqları məsələsini əsassız şəkildə bəhanə edərək müsəlman ölkələrinə qarşı kampaniya aparmaq missiyasını yerinə yetirməklə məşğuldurlar. Human Rights Watch”, “Freedom House”, “Amnesty International” kimi təşkilatların söz və fikir azadlığından, insan hüquqlarına münasibətdən danışmaları gülünc və istehza doğurur. Çünki onların bağlandıqları və maliyyə yardımları aldıqları ölkələrdə ciddi mətbuat azadlığı problemləri mövcuddur, addımbaşı insan hüquqları kobud şəkildə pozulur. Hətta Avropaya üz tutan Asiyanın, Afrikanın insanları Avropada təqib olunur, döyülür, zorakılığa məruz qalırlar. Bunu aparılan araşdırmalar və müstəqil sorğu mərkəzləri də təsdiq edirlər. Afrikadan və Asiyadan Avropaya bu və digər səbəbdən Avropaya gedən insanların 55 faizi qeyd edirlər ki, Avropa ölkələrində, xüsusilə Fransa, Almaniya və Niderlanda onlara qarşı zorakılıq hallarına yol verilir, 37 faizi deyir ki, irqi diskriminasiyanın qurbanı olub. Bununla məlum olur ki, Avropa ölkələrində diskriminasiya və rasizm xarakterli cinayətlərin sayı xeyli artıb. Məsələn, Almaniyada türklər, balkan əsillilər daha çox təzyiqlərə məruz qalırlar. Almaniyada yaşayan türklərin 52 faizi, balkan əsillilərin isə 46 faizi hesab edir ki, bu ölkədə ksenofobiya “çox yüksək səviyyədə inkişaf edir”. Sorğuda iştirak edən insanların hər 4-dən biri onlara kömək edəcək dövlət və qeyri-dövlət qurumunun olmadığını söyləyir.

Sual yaranır, görəsən, Azərbaycana qarşı əsassız iddialar irəli sürən “Human Rights Watch” və “Freedom House” nə üçün Avropada və ABŞ-da dini, irqi diskriminasiyanı, rasizmi, neonasizmi və insan hüquqlarının kütləvi şəkildə pozulmasını görmür, yaxud görmək istəmir? Bu gün Almaniyada, Fransada, Yunanıstanda elə bir biabırçı durum yaranıb ki, bu durum BMT-nin müvafiq strukturlarını belə ciddi narahat etməyə başlayıb. Xüsusilə də, Almaniyada faşizmin getdikcə daha çox yayılması və onun özəklərinin Fransada və Niderlanda yaradılması bəşəri varlığı ciddi narahat etməyə başlayıb. Çünki nasistlər fərqli dinin, dilin, milliyyətin sahibi olan insanlara hücum edib, onlara xəsarətlər yetirir, bəzən isə öldürürlər. Müstəqil təşkilatların açıqladıqları məlumatlara görə, son bir il ərzində Fransa, Almaniya, Belçika, Niderland, İsveçrə, İspaniya və Yunanıstanda ümumilikdə 234 min 23 nəfər yerli millətçilərin hücumuna məruz qalıblar. Bu halda polis də faşist dərnəklərinin üzvü olan nasistlərin vəhşiliklərinə göz yumurlar. Faktın özü təsdiq edir ki, “asayiş keşikçi”lərinin özləri nasistlərlə əlbirdirlər. Asiya və Afrikadan gələn insanlar öldürülərkən onlara qarşı laqeydlik müşahidə edilir. Qətlləri həyata keçirənlərin axtarışı aparılmır, axtarışlar aparılarkən bu, sadəcə, formal xarakter daşıyır. Bu səbəbdəndir ki, zorakılıq halları Fransa, Almaniya, Belçika, Niderland, İsveçrə, İspaniya və Yunanıstanda getdikcə artmaqdadır. İslam daşıyıcısı olan insanlar yerli millətçilər tərəfindən təqib olunurlar. Son vaxtlar belə vəhşilik halları Yunanıstanda, Fransada, Almaniyada, Belçikada, Niderlandda, İsveçrədə və İspaniyada bir qədər də artıb. Müsəlmanlar işə gedərkən və ya işdən evə gələrkən yerli millətçilər tərəfindən təhqirlər olunurlar, döyülürlər. Qadınların baş örtükləri zorla başlarından alınıb, yerə atılır. Hətta məscidlərin yandırılması, peyğəmbərlərin təhqir olunması hallar baş verir. Avropa Yəhudi Konqresinin və israilli sosioloqların araşdırmalarına görə, son vaxtlar Avropada antisemitizm əhval-ruhiyyəsi yüksəlib. Belə ki, Almaniyada, İspaniyada, B.Britaniyada, Polşada, Macarıstanda, Avstriyada və Fransada aparılmış rəy sorğularının nəticələrinə əsasən demək olar ki, yəhudi əsilli iş adamlarının dünya iqtisadiyyatında yüksək rol oynaması onlara qarşı Avropada nifrətin oyanmasına gətirib çıxarır. Bu xüsusda, Fransadakı ”Soxnut” İsrail Milli Agentliyinin rəhbəri David Roşun narahatlığı diqqət çəkir. O, Fransada baş verən insidentlərə diqqət çəkərək bu ölkədə antisemitizm stereotiplərinin yenidən baş qaldırmasını göstərir. Tuluzada, Elzasda və digər şəhərlərdə son müddət ərzində 55 antisemitizm faktı qeydə alınıb.



## “Human Rights Watch” və “Freedom House” Avropada cərəyan edən rüsvayçılıqları görmək istəmir

Avropa və dünyada gedən siyasi, iqtisadi, sosial, demoqrafik və ideoloji proseslər, bütövlükdə sağ və milliyyətçi ideyaların vüsət alması prosesini daha da sürətləndir. Bu isə çox təhlükəlidir. Avropanın və ABŞ-ın siyasi dairələri isə susurlar. Sanki baş verənlərdən xəbərsizdirlər. Sanki erməni terrorçularının 30 il işğal dövründə Azərbaycan ərazilərində törətdikləri vandalizm aktlarından məlumatsızdılar. Halbuki, bəşəri dəyərlərə zidd olan rüsvayçı vəziyyətin ideya müəllifi özləridir. Çox yaxşı bilirlər ki, Avropada və ABŞ-da islama qarşı təhdidlər var. Görürlər ki, Afrikadan və Asiyadan ABŞ-a, Avropaya üz tutanlara qarşı yerli millətçilər, xüsusilə də nasistlər necə vəhşiliklər törədirlər. Kifayət qədər məlumata malikdirlər ki, erməni terrorçu hərbi birləşmələri Azərbaycan torpaqlarını işğal edərkən necə vəhşiliklər, soyqırımı aktları həyata keçiriblər. Əsir alınan əsgərlər, girov götürülən mülki vətəndaşlarımız ən ağır vəhşiliklərlə qətlə yetiriliblər. Onlarla tarixi abidə, memarlıq nümunələri məhv edilib, yaşayış binaları yer üzündən silinib, 67 məsciddən 65-i yer üzündən silib. Hüquq müdafiəçisi Novella Cəfəroğlu qərəzli təşkilatları və ölkələri, “ağa” “qara” deyərək təcavüzkar Ermənistanı müdafiə etdiklərini söyləyib: “Bu, təəccüb doğurmur. Xislətləri budur. Bu təşkilat indiyədək bir dəfə də olsun Azərbaycana edilən təcavüzü, erməni terrorçularının Azərbaycan ərazisində törətdikləri terror aktları ilə bağlı məsələ qaldırmayıb”.

N.Cəfəroğlu onu da bildirib ki, ermənilər 44 günlük Vətən Müharibəsində müharibə zonasından uzaqda yerləşən Gəncə, Mingəçevir, Ağcabədi, Bərdə, Tərtər və digər şəhər və rayonlarda əhalinin sıx yaşadığı yerlərə raket və artilleriya zərbələri endirib: “Mülki insanlar həlak olur, yaralanıb. Onların əmlakına külli miqdarda ziyan dəyir. Hətta Gəncədə yaşayan erməni əsilli bir qadın bu zərbələr nəticəsində yaralanıb. ”Amnesty International” mülki insanların öldürülməsi məsələsini qaldırıb? Ermənistan monoetnik respublikadır. Azərbaycanlılar oradan zorla qovulub. Ancaq orada elə bir mühit mövcuddur ki, digər bütün xalqlar könüllü olaraq oranı tərk edib. Bu gün nəinki ”Amnesty International”, digər beynəlxalq təşkilatların da heç biri Azərbaycana bir söz deyə bilməz. Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun hərəkət edir. Azərbaycan öz haqlı davasını aparır”.

Bir sözlə, Avropa, ABŞ və onların təbliğat maşını olan “Human Rights Watch”, “Freedom House” kimi təşkilatlar öz gözlərində tiri görməyib, başqasının gözündə tükü seçməyə çalışırlar. Bu isə onların utancverici fəaliyyət yolu tutduqlarını göstərir. Son olaraq, “Freedom House” və “Human Rights Watch” kimi təşkilatlara başa salmaq istərdik ki, bağlı olduqları ölkələrin daxildə hökm sürən iyrənc problemlərin aradan qaldırılması üçün hökumət və dövlət qarşısında məsələlər qaldırsınlar, sonra başqa ölkələrin daxili mələlərinə burunlarını soxmağa cəhd etsinlər.

**İLHAM ƏLİYEV**

# Müalicə ehtiyatları: Naftalan sağlamlıq turizmi

*Dövlət başçısı "Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb*

TƏHLİL



***Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir. Əlbəttə ki, turizm sahəsində reallaşan layihələr, görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, qış, mədəni, işgüzar, idman turizmi, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Bu gün Azərbaycanda ilin bütün fəsillərində istirahət üçün imkanlar mövcuddur.***

Belə ki, ölkəmizdə turizmin yay turizmi ilə yanaşı, qış turizminin də yaradılması əlbəttə ki, ilin bütün fəsillərində istirahət üçün zəmin yaradıb. Ölkəmizin füsunkar gözəlliyi, potensialı da turizm üçün əlverişli şərait yaradıb. Çoxsaylı tarixi abidələr, düzənlikdən yüksək dağ zonasına qədər bir-birini əvəzləyən gözəl təbiət mənzərələri, zəngin meşə örtüyü, əlverişli iqlim, gur dağ çayları, mineral və qeyri-mineral bulaqlar, barlı-bəhərli meyvə bağları, atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti və s. turizmin inkişafı üçün mühüm amillər sırasında yer alır. Bu və ya digər amilləri qeyd edərkən adət-ənənələrimiz, milli mətbəximiz də diqqətə çəkməliyik.



Dövlətin turizm sahəsinə göstərdiyi diqqət və qayğısının nəticəsidir ki, Azərbaycan dünyada artıq turizm məkanı kimi tanınır. ”Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə də turizmin daha da inkişaf etdirilməsi əksini tapıb. Dövlətin siyasəti və ünvanlı layihələr də nəticəsini verir. Təbii ki, ölkəmizdə təhlükəsizliyin, əmin-amanlığın hökm sürməsi, beynəlxalq tədbirlərin təşkili, qlobal forumlar, humanitar forumlar, mədəniyyətlərarası dialoq forumları, iqtisadi forumlar, idman yarışları və s. turistlərin ölkəmizə axınına səbəb olub.

### NAFTALAN ŞƏHƏRİ TURİZM SEKTORUNDA ÖN SIRALARA YÜKSƏLDİ

Ölkəmizdə sağlamlıq turizmin inkişafı üçün potensial böyükdür. Burada turistlər yüksəkkeyfiyyətli tibbi müalicə əldə edə bilirlər. Min bir dərdin dərmanı olan Azərbaycanın müxtəlif bölgələrində yerləşən istisu mənbələrinin, Naxçıvandakı Düzdağın, Şabrandakı Qalaaltının müalicəvi imkanlarından insanlar yararlanırlar.

Sağlamlıq turizmindən danışarkən Azərbaycanın şimal-qərbində yerləşən Naftalan şəhərinin də adını qeyd etməliyik. Xam neftdən müalicəvi istifadəyə görə dünyada məşhur olan Naftalan neftindən, əzələ, dəri, sümük, həmçinin ginekoloji və nevroloji xəstəliklərin müalicəsində də istifadə olunur. Naftalan neftinin çıxarılması, emalı, təchizatı proseslərinin təkmilləşdirilməsi, Naftalan neftindən və ondan hazırlanan preparatlardan istifadənin genişləndirilməsi, eləcə də Naftalan şəhərinin sağlamlıq turizmi şəhəri kimi dünyada tanıdılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev ”Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən, Nazirlər Kabineti altı ay müddətində Naftalan neftinin və ondan hazırlanan preparatların müalicəvi təsirinin beynəlxalq miqyasda tanıdılmasını təmin etmək məqsədilə yeni tibbi araşdırmalar aparılmasına və sözügedən məhsullardan tibbi məqsədlər üçün daha geniş istifadə olunmasına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək. Naftalan neftinin çıxarılması, emalı, saxlanılması və sanatoriya-kurort müəssisələrinə paylanılması qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcək. ”Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə uyğun olaraq, ”Naftalan” Kurortu haqqında əsasnaməni iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcək.

Qeyd edək ki, ötən əsrin 80-ci illərində Naftalana müalicə üçün hər il 70 min turist gəlirdi. Lakin sonradan Ermənistanın Azərbaycanın 20 faiz torpaqlarını işğalı nəticəsində öz el-obalarından didərgin düşən insanların bir qismi şəhərdəki sanatoriyalarda məskunlaşmışdı. Bu gün Naftalanın kurort şəhəri kimi nüfuzunun bərpası üçün böyük işlər görülüb və bu, davam etməkdədir. Vurğulamaq yerinə düşər ki, 1970-1990-cı illər Naftalan şəhərində dönüş baş verib. Ümummilli Lider Heydər Əliyev şəhərin inkişafı və böyük şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib. Belə ki, o illərdə şəhərdə müxtəlif sosial və iqtisadi təyinatlı müəssisələr tikilib istifadəyə verilib. Sonrakı dövrdə isə Prezident İlham Əliyevin şəxsi təşəbbüsü və həyata keçirilən proqramlar sayəsində Naftalan şəhəri turizm sektorunda ön sıralara yüksəldi. Şəhərin əsasını sanatoriya-kurort infrastrukturu təşkil edir. Son illər müasir əsaslarla yeni kurortların yaradılması ilə şəhərin turizm potensialı genişləndirilir, sahibkarlığın inkişafı üçün münbit şərait formalaşır. ”Naftalan Mərkəzi sanatoriyası” da belə layihələrdən biridir. Mərkəz bir çox terapiya sahələrini özündə birləşdirməklə, müxtəlif xəstəliklərin müalicəsi üçün sağlamlıq-profilaktik müəssisəyə çevrilir. Yeni müəssisədə 50 nəfərə yaxın personalın çalışması şəhər əhalisinin məşğulluğunun təmin olunmasına mühüm töhfədir. Əlbəttə ki, Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. Naftalanda fəaliyyət göstərən kurort-sanatoriya müəssisələrində 1000 nəfərdən çox şəxs işlə təmin olunub ki, bu da şəhərdə işsizliyin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Hazırda fəaliyyət göstərən müəssisələr gün ərzində 3000-ə yaxın turist qəbul etmək imkanına malikdir. Son illərdə Naftalan şəhərində müasir tələblərə cavab verən 10-dan çox istirahət və sağlamlıq mərkəzi istifadəyə verilib. Hazırda Naftalanda müxtəlif sanatoriyalar, SPA mərkəzləri və otellər tikilir və bu şəhər öz əvvəlki şöhrətini qaytarır. Bu da gələcəkdə yeni iş yerlərinin açılması və daha çox turist qarşılanmasına səbəbdir. Vurğulayaq ki, müalicə müəssisələrinə gələn qonaqların sayında ən yüksək göstərici 2019-cu ildə qeydə alınıb, həmin ildə 60 ölkədən 12000-dən çox, ümumilikdə isə 40000-ə yaxın turist gəlib. 2020-2021-ci illərdə koronavirus pandemiyası turizm sənayesinə də təsir etdiyindən rəqəmlərdə azalma müşahidə olunub.



### DUZDAĞ – SAĞLAMLIĞIN BƏRPASINDA ƏVƏZOLUNMAZ MƏKAN

Unikal müalicəvi keyfiyyətlərinə görə dünyada tanınmış Naxçıvanda yerləşən Duzdağ Fizioterapiya Mərkəzi də turistlərin sevimli istirahət və müalicə məkanıdır. Yay aylarında təbii üsullarla bronxial-astma və digər yuxarı tənəffüs yolları xəstəliklərindən müalicə olunmaq üçün Naxçıvan şəhərindən cəmi 12 kilometr məsafədə yerləşən Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayında hər il artım müşahidə olunur. Duzdağ sağlamlığını bərpa etmək istəyənlər üçün əvəzolunmaz yerdir. Keçən əsrin 70-ci illərində Duzdağ şaxtalarında təşkil olunmuş yeraltı müalicə mərkəzinin şöhrəti hər tərəfə yayılıb. Burada tətbiq olunan müalicə üsulu mütəxəssislər tərəfindən də yüksək qiymətləndirilir. Ümumiyyətlə, Naxçıvanın təmiz havası ilə bərabər, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti müalicənin müsbət nəticələr verməsinə şərait yaradır. Belə ki, insanların dərinliyə enmədən birbaşa duz şaxtasına daxil olması, il ərzində havanın sabit müsbət 20 dərəcə temperaturda qalması, 24 faiz nisbi rütubət, oksigenin havadakı miqdarının 20 faiz təşkil etməsi, sıfıra bərabər hava cərəyanı və zəhərli qazların son dərəcə minimum səviyyəsi Duzdağın müalicəvi effektini artıran əsas amillərdəndir.

Sağlamlıq turizmindən danışarkən Qalaaltı mineral suyunu da qeyd etməliyik. Qida qəbulundan sonra, eləcə də müxtəlif xəstəliklərin müalicəsi zamanı və digər məqsədlər üçün qəbul edilən təbii, müalicəvi mineral süfrə suyu olan Qalaaltı mineral suyu müalicəvi xüsusiyyətlərə malikdir. Mənbələrdə göstərilir ki, onun müalicəvi effekti haqqında ədəbiyyatda olan ilk xatırlamalar 1578-ci illərə aiddir. Alimlərin apardıqları tədqiqatlar göstərmişdir ki, ”Qalaaltı” suyu tərkibi etibarı ilə Zakarpatiyada (Truskavets) çıxan mədən suyu ”Naftusiya”nın eynidir. ”Qalaaltı” mədən suyu tapılana qədər Truskavetsin ”Naftusiya” suyu SSRİ-də yeganə hesab olunurdu.

### TURİZM İQTİSADİYYATIN APARICI SAHƏSİDİR

Mədən suyu Şabran rayonunun 20 kilometrliyində Qalaaltı adlanan kəndin üst tərəfində, dağətəyi meşədə 1969-cu ildə tapılmışdır. Meşədə həmin suyun 7 mənbəyi müəyyən edilmişdir. Bunlar da böyük ehtiyata malikdir. Böyük Qafqazın ətəklərində, dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən ”Qalaaltı” sanatoriyası 1976-cı ildən fəaliyyət göstərir. Sanatoriyada müalicə Qalaaltı kəndi ərazisindən çıxan təbii sularla aparılır. Yerlilər müalicə əhəmiyyətli bu suya ”Naftsu”, yəni neftli su deyirlər. ”Naftsu” kəskin qoxusu və dadı ilə seçilir. O həm öz tərkibi ilə həm də insan orqanizminə olan fizioloji təsirinə görə orijinaldır. O orqanizmdə maddələr mübadiləsini normallaşdırır, qan və sidiyə qələviləşdirici təsir göstərir, sidik turşusunun yaranmasını azaldır və onun orqanizmdən çıxarılmasına köməklik göstərir, mədə turşuluğunu azaldır, hüceyrə membranalarının keçiriciliyini azaldır, qanaxmanı azaldır, əksiltihabi təsir göstərir, diurezi artırır, orqanizmdə olan artıq mayeni çıxardır.

Ölkəmizdə turizmin inkişafı üçün əlverişli mühitin yaradılmasının məntiqi nəticəsi olaraq, Azərbaycanın dilbər guşələrindən biri sayılan Şabran rayonunda ”Qalaaltı Hotel & SPA” müasir müalicə-istirahət kompleksinin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Dəniz səviyyəsindən 700 metr yüksəklikdə yerləşən yeni kompleks məşhur ”Qalaaltı” kurortunun bazasında inşa edilib. Kompleks Azərbaycanın qədim tarixi-mədəniyyət abidələrindən olan Çıraqqalanın yaxınlığında, sıldırım qayanın altında yerləşir. Belə bir sağlamlıq mərkəzinə üz tutan turistlər istirahətlə yanaşı, müalicə də olunurlar.

Əlbəttə ki, müasir dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Turizminin inkişafına dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirib. Belə ki, rəqabətqabiliyyətli inkişaf üçün iqtisadiyyatın müxtəlif sahələrində aparılan iqtisadi islahatlar turizm sahəsinin inkişafına töhfəsini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Azərbaycan modern iqtisadi inkişaf modelinə malikdir

## Bu, ölkəmizin qüdrətlənməsinə və güclü dövlətlər cərgəsində yer almasına zəmin yaradır

***Azərbaycan dövlətinin son 4 ildə dünyanı heyrətləndirən hərbi, geosiyasi və sosial uğurlarının əsasını iqtisadiyyatın güclənməsi və şaxələndirilməsi təşkil edib. Ulu Öndərin «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir» tezisini reallığa çevirən Prezident İlham Əliyev yaxşı bilirdi ki, digər sahələrin də inkişafı məhz güclü iqtisadiyyat yaratmaqdan keçir. Prezident İlham Əliyevin cari ilin 26 sentyabr tarixində keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki çıxışında bildirib ki, 2024-cü ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədə olub.***



Bu dövrdə iqtisadi artım 4,3 faiz təşkil edib. Yəni bu göstəricini hazırkı qlobal iqtisadi çətinliklərin mövcud olduğu bir vaxtda müsbət tendensiya hesab etmək olar. Xüsusilə ən əhəmiyyətli fakt ölkəmizdə qeyri-neft sektorunun 7 faiz artmasıdır. Bu bir daha təsdiq edir ki, Azərbaycanda iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verir.

Yeni yaradılan sənaye parklarından bəhs edən Prezident vurğulayıb ki, bu müəssisələr ölkəmizin iqtisadi müstəqilliyinin artmasına xidmət edir: «Bizim ənənəvi sənaye məntəqələrimizdə, - Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, - yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.»

Ölkəmizin başçısı müşavirədə önəmli xəbər də verib. Bildirib ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq: «Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik.»

Bu gün qarşıda duran əsas hədəflərdən də biri Azərbaycanın hərbi potensialının gücləndirilməsidir. Bu, ölkəmizin və xalqımızın milli təhlükəsizliyi üçün əsas amildir. Prezident bu sahənin də daim diqqətdə saxlanıldığını bildirib və gələn ilin dövlət büdcəsində artımların olacağını elan edib.

Ölkəmizin başçısı müşavirədə xüsusi vurğulayıbki, vətəndaş amili dövlət siyasətimizin əsasıdır. Bu, atılan addımlarda da özünün aydın ifadəsini tapır: «2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artıb. Artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaq.»

Azərbaycan neftini Azərbaycan xalqının rifahına yönəltmək kimi məsuliyyətli və şərəfli bir işin öhdəsindən layiqincə gələn Prezident İlham Əliyev bu barədə deyib: «Neft gəlirlərinin təyinatı üzrə xərclənməsi, ədalət prinsipinin qorunması insanların rifah halının yaxşılaşdırılmasına yönələn addımlarla müşayiət olunur. Daim bu reallıq diqqətə çatdırılır ki, neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacardıq. Azərbaycan nefti inkişafa çevirdi, sərvətin ədalətli paylanmasını təmin etməyə nail oldu.»



Bəli, bu gün neft gəlirlərindən səmərəli istifadə mühüm sosial-iqtisadi layihələrin icrasını sürətləndirir ki, bu da öz növbəsində ölkəmizin hərtərəfli inkişafını şərtləndirir. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondu, eyni zamanda, Prezident İlham Əliyevin 27 sentyabr 2004-cü il tarixli Fərmanı ilə təsdiqlənən «Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya (2005-2025-ci illər)»dan irəli gələn vəzifələrin uğurlu icrası qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmağa stimul verir.

Dövlət başçısı İlham Əliyev müşavirədə onu da bildirib ki, son illərdə xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi. Ölkəmiz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyir. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və tələb edilmişdir ki, aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq: «Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.»

Ölkəmizdə mövcud olan investisiya mühitinə də toxunan Prezident İlham Əliyev deyib ki, son 21 ilə yaxın dövrdə ölkə iqtisadiyyatına 310 milyard dollar investisiya yatırılıb ki, bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Azərbaycanda yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enib. Paytaxt Bakıda, regionlarda, xüsusilə işğaldan azad edilmiş ərazilərimizdə görülən işlər, infrastrukturun tamamilə yenilənməsi və insanların həyat səviyyəsinin daha da yaxşılaşması iqtisadi inkişafımızın göstəriciləridir.

Bu gün dövlətimizin qarşısında duran əsas hədəflərdən biri Böyük Qayıdış Proqramını sürətləndirməkdir. Ona görə də postmüharibə dövründə işğaldan azad olunumuş ərazilərdə aparılan sürətli quruculuq, bərpa işləri daim diqqətdə saxlanılır. Ötən dörd ildə Azərbaycanın dövlət büdcəsindən bərpa işlərinə 12 milyard manatdan çox vəsait ayrılıb. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sürətli bərpa və yenidənqurma işləri həyata keçirilir. Yaşayış binaları, iaşə obyektləri, hava limanları tikilir, yollar çəkilir, kommunikasiya xətləri qurulur, bir sözlə, bu yerlərə həyat qayıdır. Artıq minlərlə keçmiş məcburi köçkün Laçına, Füzuliyə, Zəngilana, Şuşaya, Xocalıya, Suqovuşana, Cəbrayıla qayıdaraq öz doğma torpaqlarında yeni həyata başlayıblar.

***Elçin Zaman***





ARAŞDIRMA

# Tələbələrin geyim tərzi necə olmalıdır?

***Son illərdə bir çox qadınların geyimində məhrəmiyyət aradan qalxıb. Belə ki, artıq açıq-saçıq geyinmək soyunmağa bərabər tutulur. Bunun adını da qadın azadlığı qoyurlar.***

Günümüzdə əksər tələbələrin geyim tərzlərinin o qədər ürəkaçan



olmadığının da şahidiyik. Bəs, universitetlərimizdə geyim qaydaları necə olmalıdır? Hansı normaları gözləmək lazımdır? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Gözəl geyinmək həm kişilərə, həm də qadınlara lazımdır. Amma unutmayaq ki, gözəl geyim insanın bədəninə, dərisininənginə və mühitinə uyğun geyinmək deməkdir. Bədən xüsusiyyətlərini bilmədən və ya nəzərə almadan geyinmək insanı gözəl göstərmir. Çünki bir insana yaraşan paltar digərinə yaraşmaya bilər.

Hər kəsin öz geyim tərzi olmalıdır. Bu üslub insanın öz şəxsi, mənəvi, fiziki xüsusiyyətləri və ictimai mövqeyi nəzərə alınmaqla müəyyən edilməlidir. Geyim insanın şəxsiyyətini, düşüncəsini, həyat tərzini, zövqünü, özünə hörmətini, özünə inamını, ətrafındakılara göstərdiyi hörməti və onlara verdiyi dəyəri əks etdirir. Buna görə də bəzi bölgələrdə məhrəmiyyət nəzərə alınmalıdır.

Günümüzdə gözəl geyinməyin özünə inam üzərində təsiri danılmazdır. Kapitalizmin yaratdığı moda adlı bir cərəyan çox təəssüf ki, insanlar arasındakı zövqü, fərqliliyi, şəxsi hissləri öldürür. İnsanlar şəxsi və fiziki xüsusiyyətlərindən asılı olmayaraq modaya riayət etməyi zəruri hesab edirlər. Bu, cəmiyyətdə demək olar ki, hər kəsin eyni geyinməsinə səbəb olur. Təəssüf ki, geyimdəki vahidlik düşüncədə də özünü göstərir. İnsan düşüncəsi və duyğuları kapitalizmin müəyyən etdiyi qanunauyğunluqlara görə formalaşır. Bu, bizim insan mahiyyətimizi məhv edir.

Dünyada nə qədər insan varsa, o qədər də geyinmə üsulları var. Çünki hər bir insanın stili fərqlidir. Dəb adlı bir cərəyanla insanları idarə etmək və standartlaşdırmaq kapitalizmin uğurudur. Bu geyim tərzi qadınların azadlığını məhv edir. Çünki vahidlik olan yerdə azadlıq yoxdur. Təəssüf ki, çoxları bu əsarətin azadlıq olduğunu düşünür.

**Təhsil eksperti Kamran Əsədov:** "İlk növbədə qeyd edim ki, Azərbaycanda universitetlərdə tələbələrin geyim qaydaları rəsmi şəkildə tənzimlənmir, lakin bəzi universitetlər öz daxili qaydalarına uyğun olaraq müəyyən geyim standartları tətbiq edə bilərlər. Geyim məsələsi həm universitet nizam-intizamının, həm də təhsil mühitinin bir hissəsi kimi görülə bilər. Bu məsələ müxtəlif aspektlərdən təhlil oluna bilər: qanunvericilik, beynəlxalq təcrübə, tədris keyfiyyəti və tərbiyə göstəricisi baxımından.

### Qanunvericilik

Azərbaycanda ali təhsil müəssisələrində geyimlə bağlı xüsusi qanun və ya qayda yoxdur. Geyimlə bağlı qərarlar əsasən universitet rəhbərliyinin daxili nizamnamələri əsasında qəbul edilir. Lakin qanunvericilikdə universitetlərin daxili qaydalarına hörmət etmənin vacibliyi vurğulanır, və bu, tələbələrin bir sıra qaydalara əməl etməsini tələb edə bilər, o cümlədən geyimlə bağlı da.

### Beynəlxalq təcrübə

Beynəlxalq təcrübədə, xüsusilə Qərb ölkələrində universitetlərdə geyim məsələsi çox sərbəstdir. ABŞ, Kanada və Avropada tələbələrə geyim azadlığı verilir, və onların geyimi əsasən akademik mühitə uyğun olmalıdır. Lakin bəzi universitetlərdə, xüsusilə dini və ya konservativ ölkələrdə (Səudiyyə Ərəbistanı, İran kimi) daha ciddi geyim qaydaları tətbiq edilir. Asiya ölkələrində isə tələbələrin geyimlərinə diqqət yetirilməsi normaldır, hətta bəzilərində məktəb və ya universitet forması məcburi ola bilər.

Finlandiya kimi təhsil sahəsində uğurlu ölkələrdə isə universitet tələbələrinə geyim azadlığı verilir. Orada təhsilin keyfiyyəti geyimdən daha çox tələbələrin akademik nailiyyətlərinə və tədris mühitinə yönəlib. Belə yanaşma, azadlığın tələbələrin özünü ifadə etməsi üçün vacib olduğunu göstərir.

### Tədris keyfiyyəti

Geyim tərzinin təhsilin keyfiyyətinə təsiri çox mübahisəli bir mövzudur. Geyim azadlığı tələbələrin rahatlıq və özünü ifadə etmə imkanı yarada bilər, bu da onların motivasiyasına və akademik fəaliyyətlərinə müsbət təsir göstərə bilər. Digər tərəfdən, ciddi geyim qaydaları intizam və mərkəzləşmiş nizam-intizam yaratmaq baxımından vacib ola bilər. Belə qaydalar həmçinin tələbələrdə peşəkar bir mühitin yaranmasına kömək edə bilər.

### Tərbiyə göstəricisi

Geyim tərzi həmçinin tərbiyə və dəyərlərin bir hissəsi kimi də görülə bilər. Məsələn, milli adətənənələrə və dəyərlərə uyğun geyim, universitet mühitində tələbələr arasında daha ciddi və mütəşəkkil bir münasibət formalaşdıra bilər. Azərbaycanda milli dəyərlərə hörmət məsələsi tez-tez vurğulanır, buna görə də bəzi universitetlər milli mentaliteti nəzərə alaraq müəyyən geyim qaydalarını tətbiq edə bilərlər.

### Nəticə və təkliflər

Azərbaycan universitetlərində tələbələrin geyimi məsələsi müasir dövrün tələbləri və milli ənənələr arasında tarazlıq tələb edən bir məsələdir. Beynəlxalq təcrübə göstərir ki, geyim azadlığı tələbələrin daha yaradıcı və özünə inamlı olmasına səbəb ola bilər. Buna baxmayaraq, bəzi hallarda peşəkar və nizamlı geyim tərzinin tələb edilməsi də təhsilin keyfiyyətini artırmağa yönəldilmiş bir vasitə kimi qiymətləndirilə bilər.

Bu mövzuda vahid yanaşma yoxdur, hər bir universitet öz daxili qaydalarına uyğun qərar verməli və tələbələrinin akademik inkişafına və sosial tələblərinə uyğun tədbirlər görməlidir".



***Ayşən Vəli***



# İtirdiyimiz xüsusiyyətlər: söhbət

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*





## XVIII YAZI

İnternetin, xüsusilə sosial şəbəkələrin hələ həyatımıza girmədiyi dövrləri xatırlayırsınızmı? Necə ünsiyyət saxlayırdıq, necə sosiallaşırdıq? Söhbət axşamlarını, çay dəstgahlarını, böyüklü-kiçikli ətrafına yığıldığımız o süfrələri xatırlamayan olmaz zənnimcə. Bir də pandemiya dövrünü xatırlayın, insan üzünə həsrət qaldığımız, söhbətə ac olduğumuz günləri...

Söhbət, insan münasibətlərini və ünsiyyəti təsvir edən ən vacib sosial ehtiyaclardan biridir. Hətta gündəlik həyatın ən vacib ehtiyacıdır desək, daha doğru olar. İnsanlarla sosiallaşmaq və söhbət etmək yemək qədər, su qədər vacibdir. Necə ki, qida qəbul edib, su içib fiziki bədənimizin ehtiyaclarını ödəyirik, eləcə də sosiallaşaraq, ünsiyyət quraraq, söhbət edərək ruhi bədənimizin ehtiyaclarını ödəməliyik. Amma özümüzü virusdan qoruduğumuz o qapanma müddətində sosial həyatımız, ünsiyyət bacarığımız deformasiyaya uğradı. Milli dəyərlərimizdən hesab etdiyimiz o böyük süfrələr, qonaqlı-qaralı evlərin sayı azaldı, hər kəs əlindəki ekranın əsirinə çevrildi. Bizi özünün böyük, vahiməli toruna salan virtual dünya üzərimizdə bir az da çox hakimiyyət qurdu.

Rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl görüş təyin edirdik, sonra qarşılıqlı, real olaraq görüşür, söhbətləşir, çay içir, yemək yeyir, beləcə sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Lakin indi hər şeyi virtuallaşdırmışıq, ən doğmamızla belə internet vasitəsi ilə ünsiyyət saxlayırıq. İnternet bizə bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət qurmağımıza, mesajla, adi zənglə, görüntülü zənglə və s. üsullarla danışmağımıza imkan yaradır. Bu, əlbəttə, yaxşıdır. Amma qonşuluğumuzda yaşayan dostumuza, valideynimizə baş çəkmək yerinə video-zəng etmək də internetin "hədiyyəsidir". Bu hədiyyələr bizdən nələri alıb aparır, fərqində deyilik...



İnsan təbiəti elədir ki, mütəmadi sosiallaşmaq, ünsiyyət qurmaq istəyir. Söhbət etmək insanın ruhi-psixoloji sağlamlığında böyük rol oynayır. Biz hər şeyi virtual etməyə meyllənirik, əvvəl zövq aldığımız adətlərimizin yerinə onunla eyniləşdirməyə çalışdığımız yeni adətlərimiz yaranır. İndi əksəriyyət daha çox təkliyə, tənha qalmağa meyllənir. Belə adamlar cəmiyyətdən, sosial çevrəsindən uzaq durmağı seçirlər və sosial əlaqələr qurmaqdan çəkinən olurlar. Əslində söhbət etmək də bir mədəniyyətdir, dövrümüzün insanlarında bu mədəniyyət getdikcə azalır. İnsanlar söhbətin dəyərini getdikcə unudurlar. Söhbət monoloq deyil, çıxış deyil, diqtə deyil. Söhbət qarşılıqlı sosiallaşmaqdır, söhbət edə bilmək qədər qarşıdakı insanı dinləyə bilmək də mədəniyyət göstəricisidir. Ona görə də bir-birini başa düşməyən, ortaq maraqları olmayan insanların söhbəti də maraqlı olmur.

Müasir dünya bizə nəyi öyrətdi, bilirsinizmi? Hər addımımızı planlı atmağı. Axşamdan sabahın planını qururuq, saat neçədə, harada olacağımızı, kimlərlə görüşəcəyimizi, nə iş görəcəyimizi detallı planlayırıq. Həyatımızda gözlənilməz nəsə baş vermir, sürpriz olmur, qəfil heç nə olmur, bir sözlə monoton yaşayırıq. Halbuki bizim də ehtiyacımız var qəfil qonaq getməyə, qəfil gələn qonağı qəbul etməyə. Modern həyat tərzi bizi bu cür söhbət masalarından, qarşılıqlı müzakirələrdən də uzaqlaşdırdı. Plan-proqram ilə qurduğumuz günümüz bizi elə mühasirəyə alıb ki kiminləsə söhbət etmək ehtiyacımız kölgədə qalıb, üstünü toz basıb.

Söhbət etməyin, ünsiyyət qurmağın dəyərini dərk etməyənlər ordusu yaranır. Bir də ayılır ki, ömrü tək-tənha, virtual sosiallaşmaqdan başqa bir məşğuliyyəti olmadan keçib gedib. Əslində, bir çox sosial bacarıqları hələ körpə yaşarımızdan əldə etdiyimiz kimi, söhbəti də uşaqlığımızda öyrənirik. İnsan uşaq ikən ətrafında nə görürsə sosial bacarıqları da ona uyğun formalaşır. Məsələn, daimi zorakılıq görən uşaq onu təqlid edir, daimi ünsiyyət, söhbət görən uşaq da söhbəti, sosiallaşmanı, qonaq getməyi, qəbul etməyi təqlid edir. Ona görə də o söhbət mühitini görənlər, onun həzzini vaxtı ilə yaşayanlar bu gün yoxluğu ilə barışa bilmir, əskikliyini hiss edir.

Söhbətin ləzzəti, faydası hər iki tərəfin məmnuniyyətini təmin edərsə olur. Söhbət zamanı yalnız öz doğrularını diqtə edən, dinləməyi bacarmayan insanlar yaxşı həmsöhbət deyil, aqressiv müzakirəçidir. Söhbətləşmək bir ehtiyacdır və o ehtiyac ödənilmədikcə sağlamlığımıza problemlər yaradır – insan zamanla öz-özünə danışır, virtual asılılıq artır, ünsiyyətsizlik xəstəliyə çevrilir.

Texnologiya nə qədər inkişaf edisə etsin, hər gün virtual ünsiyyət vasitələri təkmilləşsin, yenə də real ünsiyyətin, söhbətin verdiyi enerjini və səmimiyyəti heç nə əvəz eləmir. Bunun səbəbi isə virtual ünsiyyətdən fərqli olaraq real ünsiyyətin yalnız sözlərlə deyil, bədən dilinin köməyi ilə baş verməsidir. Çünki bəzən ünsiyyət zamanı tərəf müqabilimizin nə dediyini, nəyi demədiyini hərəkətləri və enerjisi sayəsində anlayırıq. Söhbət zamanı etiket qaydalarına əməl etməsi, nəzakətli və ya narahat olması, söhbətdən məmnun qalıb-qalmaması da məhz hərəkətləri ilə anlaşılır.

Ailə süfrələrində, dost məclislərində ruhən qidalandığımız anları xatırlayın. Üzbəüz ünsiyyət, canlı söhbət, real münasibətdən sonra necə də rahatlamış, dincəlmiş hiss edirdi insan. Həm ruhən , həm mənən sakit həyatımız vardı. Qaçhaqaç, qovhaqov deyildi heç nə, 24 saat necə uzun idi, hər şeyi sığışdıra bilirdik içinə. Xatırladınız? Bir də indiki vəziyyətimizə baxın, 24 saat bizə yetmir, hər işimiz yarımçıq qalır, yeriməyi, dincəlməyi, gəzintiyə çıxmağı, söhbətləşməyi unutmuşuq. İnkişaf, texnologiya bizdən ən vacib sosial bacarığımızı – söhbət mədəniyyətimizi aldı.

O ailə məclisləri yenə də var, amma fərqli formada. Ailəsi ilə eyni süfrədə oturub başını telefonuna əyən insanlar var. Sevdiklərinin çevrəsində sevdiklərindən ayrı bir dünyanın təsirində olur insan. Bu əvvəl könüllü olsa da, sonra əsir həyatı yaşamaqdır. Qurtulmaq lazımdır o buxovlardan, geri qaytarmaq lazımdır o söhbət mədəniyyətini, ünsiyyət bacarığını. Xoşbəxt, sosial çevrəsinin məhəbbəti ilə bürünmüş, canlı ünsiyyət problemi olmayan insanın süfrədə, ən xoşbəxt olduğu anlarda telefon, sosial şəbəkə yadına düşmür. Ailəsi ilə eyni süfrədə ikən canlı ünsiyyətin keyfinə varmayan, əlində telefon sosial şəbəkələrdə canlı yayım açmaq dərdinə düşən insan sosiallaşmır, xəstələnir.

***Lalə Mehralı***

SON SƏHİFƏ

SƏS

1 oktyabr
2024-cü il

# Ağ çörəklərin qəbulu azaldılmalıdır əks təqdirdə...



*“Çörək gündəlik qida rasionumuzun əsas hissəsini təşkil edir. Həm də tam buğda unu, tam çovdar unu enerji, karbohidrat, lif, vitamin və minerallar baxımından zəngin bir qidadır. Lakin sağlam və balanslı qidalanma baxımından çörək istehlakı ilə bağlı bəzi məqamlara diqqət etməliyik. Çörəyin düzgün miqdarda və keyfiyyətdə istehlak etmək sağlamlıq baxımından faydalıdır və orqanizmin optimal fəaliyyətini təmin etməyə kömək edir”. Bu sözləri SİA-ya açıqlamasında Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.*



**EKSPERT SƏBƏBİNİ AÇIQLADI**

Onun sözlərinə görə, çörək karbohidratlarla zəngin olduğundan orqanizm üçün əsas enerji mənbəyidir: “O, xüsusən beyin və əzələlər üçün vacib olan qlükozanı təmin edir. Çörəyin tərkibində olan karbohidratlar enerji verən əsas mənbələrdir və gündəlik kalori ehtiyacının 45-65%-ni təmin etməlidir. Liflər qan şəkərinin tənzimlənməsinə və mədə-bağırsaq sisteminin sağlam fəaliyyətinə kömək edir. Proteinlər həzm sisteminin funksiyasını tənzimləyir və toxluq hissini artırır. B qrup vitaminləri (tiamin, riboflavin, niasin və folat) və dəmir, sink kimi minerallar baxımından zəngindir. Bu komponentlərin hər biri çörəyin növündən və unun emal formasından asılı olaraq fərqli miqdarlarda olur. Tam taxıl çörəyi, ağ çörəyə nisbətən daha çox lif və vitamin ehtiva edir”.

Asim Vəliyev sözlərinə belə davam edib: “Çörəyin miqdarını müəyyən edərkən insanın yaşı, cinsi, fiziki aktivlik səviyyəsi, çəkisi və sağlamlıq vəziyyəti kimi amilləri nəzərə almaq vacibdir. Yetkin insanlar üçün gündəlik orta hesabla 3-6 dilim çörək məsləhət görülür. Bu miqdar, qidalanma piramidası prinsiplərinə uyğun olaraq ümumi qida qəbulu ilə balanslaşdırılmalıdır. Az hərəkətli insanlar üçün 2-4 dilim tövsiyə olunur . Az fiziki aktiv insanların enerji ehtiyacı daha azdır və artıq çörək qəbulu çəkisinin artmasına səbəb ola bilər. Aktiv həyat tərzi olan və idmanla məşğul olanlar üçün 5-7 dilim tövsiyə olunur . Bu qrup insanlar daha çox enerji sərf edir, buna görə də karbohidrat və protein ehtiyacı yüksək olur. Çörəkdən gələn enerjinin digər qida qrupları (tərəvəz, meyvə, zülal) ilə uyğun şəkildə paylanması önəmlidir. Məsələn, bir dilim tam buğda çörəyi təxminən 80 kalori, 15 qram karbohidrat və 2-3 qram protein verir. Bu miqdar digər karbohidrat mənbələrindən gələn enerjinin miqdarı ilə balanslaşdırılmalıdır.

Çörəyin növü sağlamlıq üzərində müxtəlif təsirlər göstərə bilər. Ağ çörək yüksək qlisemik indeksə malik olduğu üçün qan şəkərinin ani olaraq yüksəlməsinə səbəb çıxara bilər. Bu isə uzun müddət ərzində diabet və piylənmə riskini artırır. Digər tərəfdən tam taxıl çörəyi lif və zülal miqdarı yüksək olduğundan daha yavaş həzm olunur və toxluq hissini uzun müddət qoruyur. Tam buğda, çovdar, yulaf çörəkləri bağırsaqların sağlamlığı üçün faydalıdır. Çörək seçərkən bəzi məqamlara diqqət etməliyik.

Tərkibində ilk sırada “tam buğda unu”, “çovdar unu” kimi ifadələrin olub-olmadığına diqqət yetirməliyik. Bu ifadələr çörəyin tərkibindəki taxılın tam halda istifadə edildiyini göstərir. Az şəkər və duz tərkibli çörəklər seçilməlidir. Çox şəkər və duz qəbul etmək hipertoniya və ürək-damar xəstəlikləri riskini artıra bilər. Tərkibində konservant, boyalar və ya dadlandırıcılar olan çörəklərdən uzaq durmalıyıq.

Çörəyi çox miqdarda istehlak etmək çəkimizin artmasına, qan şəkərinin yüksəlməsinə və həzm problemlərinə səbəb ola bilər. Xüsusilə də aşağı keyfiyyətli, emal olunmuş unlardan hazırlanan çörəklər qan şəkərini tez yüksəldərək insulin müqavimətini artırır. Gündəlik çörək istehlakını tənzimləmək üçün balanslı qidalanma rejiminə riayət etmək lazımdır. Əgər çörəkdən gələn kalorilər digər karbohidrat mənbələrindən gələn kalorilərlə balanslaşdırılmasa, artıq çəki problemi ortaya çıxa bilər. Həmçinin tam taxıl çörəklərinə üstünlük verilməli, emal olunmuş və ya ağ çörəklərin qəbulu azaldılmalıdır”.

*Ayşən Vəli*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Nar” BMT Qlobal Sazişinin Liderlər Zirvəsində iştirak edib



*Korporativ sosial məsuliyyət prinsipinə sadiq qalan və BMT Qlobal Sazişinin üzvü olan “Nar” Nyu-Yorkda keçirilən BMT Qlobal Sazişinin Liderlər Zirvəsində təmsil olunub. Tədbirdə iştirak “Nar”ın davamlı inkişafa və məsuliyyətli biznes təcrübələrinə olan sadiqliyini vurğulayır.*

Ölkəmiz üçün xüsusi önəm daşıyan COP29 tədbiri ərəfəsində keçirilən zirvə qlobal iqlim dəyişikliyi və dayanıqlılıq sahəsində özəl sektorun roluna dair müzakirələr üçün mühüm platforma təqdim edib. “Nar” burada ESG (Ətraf mühit, sosial məsuliyyət və korporativ idarəetmə) strategiyasının icrası ilə bağlı faydalı təcrübələr əldə edib və qarşıdakı tədbirlərdə bu sahədəki fəaliyyətlərini daha da genişləndirmək üçün imkanlar qazanıb.

”Nar”ın İctimaiyyətlə əlaqələr və korporativ ünsiyyət departamentinin direktoru Hökümə Kərimova zirvə çərçivəsində inklüzivlik və sosial məsuliyyət mövzularında çıxış edərək bildirib: “Biz sosial məsuliyyəti ön planda tutan bir şirkət olaraq, sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə və iş mühitinə inteqrasiyasını dəstəkləyən layihələr həyata keçiririk. Bu, həm bərabərlik və inklüzivliyə töhfə verir, həm də cəmiyyətin müxtəlif təbəqələrinin inkişafına dəstək olmağa imkan yaradır. BMT Qlobal Sazişinin Liderlər Zirvəsində iştirakımız bu istiqamətdəki səylərimizi daha da gücləndirir”.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700